RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 19 (8335) CÜMƏ AXŞAMI, 30 yanvar 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Əhalinin sosial müdafiəsinin gücləndirilməsi davamlı xarakter daşıyır

**Prezident İlham Əliyev tərəfindən ötən il əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində qəbul edilən qərarlar tarixi əhəmiyyət daşıyır. Çünki bu sahə ilə bağlı imzalanan fərman və sərəncamlar 4 milyondan çox insanın həyat şəraitinin yaxşılaşmasına xidmət edib. Həmin qərarlar əhatə dairəsinə görə də çox genişdir. Belə ki, minimum pensiyaların, minimum əməkhaqqının, müavinət və təqaüdlərin artırılması ölkə əhalisinin yarısına qədərinin sosial rifahının yüksəlməsinə səbəb oldu.**

Keçən il vətəndaşların sosial rifahının yaxşılaşması üçün iki sosial paketin qəbulu mühüm hadisə idi. Həmin sənədlərə əsasən, minimum əməkhaqqı 2 dəfəyə yaxın artırılaraq 130 manatdan 250 manata çatdırıldı. Bunun sayəsində dövlət sektorunda çalışanların əməkhaqqı 20-100 faiz artdı. Minimum əməkhaqqının və dövlət sektorunda əməkhaqqının artımı 1 milyon 350 min nəfəri (o cümlədən dövlət sektoru üzrə 1 milyon, özəl sektor üzrə 350 min nəfəri) əhatə etdi.

Əhalinin pensiya təminatında da mühüm işlər görüldü. Minimum pensiya 72,4 faiz artaraq 116 manatdan 200 manata çatdırıldı, həmçinin əməkhaqqı artımı xüsusi şərtlərlə təyin olunan pensiyalarda (hərbçilərin, dövlət qulluqçularının və başqalarının pensiyalarında) 31 faiz artım təmin edildi. Beləliklə, ümumilikdə hər iki istiqamət üzrə pensiya artımı 750 min nəfərdən çox pensiyaçını əhatə etdi. Nəticədə Azərbaycan minimum pensiyanın alıcılıq qabiliyyəti indeksi üzrə MDB ölkələri arasında birinci yerə, minimum əməkhaqqının alıcılıq qabiliyyəti indeksi üzrə ikinci yerə yüksəldi.

Bununla yanaşı, sosial müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb. Həmin artım həssas qrupdan olan vətəndaşlardan ibarət 600 min insanı, o cümlədən 300 minə qədər əlilliyi olan şəxsi əhatə edib. Yeni təqaüd növləri - sağlamlıq imkanları məhdud uşaqlara və 1-ci dərəcə əlilliyi olan şəxslərə qulluq edənlər, müharibə veteranları üçün Prezidentin aylıq təqaüdü təsis edildi. Eyni zamanda məcburi köçkünlərin müavinətləri, tələbələrin təqaüdləri ciddi şəkildə artırıldı, 800 min insanın problemli kreditlə bağlı olan narahatlığına son qoyuldu.

Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində görülən işləri yüksək dəyərləndirərək demişdir: “Keçən il aparılmış islahatlar nəticəsində biz əldə edilmiş əlavə gəlirləri, ilk növbədə, məhz sosial sahəyə yönəltdik. Mən keçən ilin əvvəlində bunu bəyan etmişdim. Demişdim ki, yığılacaq bütün əlavə vəsait sosial sahəyə yönəldiləcəkdir və bunu da etdik. Hər zaman olduğu kimi sözümüzün üstündə dururuq. Sosial sahədə gedən müsbət proseslər və vətəndaşların rifah halının yaxşılaşdırılması bizim üçün prioritet məsələ olaraq qalır”.

Beləliklə, pensiyalarda ciddi artım sayəsində ötən il Azərbaycanda pensiyaların orta aylıq məbləği 15, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 15, əlilliyə görə pensiyaların orta aylıq məbləği 22 faiz artıb. Eləcə də Median pensiya məbləğində 54 faiz artım müşahidə edilib.

Məlum olduğu kimi, Ermənistanın Azərbaycana təcavüzünün qarşısını alarkən əlil olan insanların və şəhid ailələrinin sosial rifahının yaxşılaşdırılmasına dövlət xüsusi diqqət göstərir. Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitutusiya quruluşunun müdafiəsi uğrunda döyüşdə şəhid olan insanların ailələrinin və əlilliyi olan şəxslərin mənzillə təminatı, həmçinin müharibə əlillərinə minik avtomobillərinin verilməsi ənənə halını alıb. Bunun təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən hələ ötən əsrin 90-cı illərində qoyulub. Prezident İlham Əliyev də bu kateqoriyadan olan insanların problemlərinə həssaslıqla yanaşır, onların sosial vəziyyətini yaxşılaşdırmaq üçün operativ qərarlar qəbul edir.

Prezident İlham Əliyevin qayğısı sayəsində 2018-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə nəzərdə tutulduğundan (207 mənzil) 3 dəfə çox olmaqla 626 mənzil təqdim edilibsə, ötən il bundan 50 faiz çox olmaqla 934 mənzil və fərdi ev verildi. Beləliklə, nazirlik tərəfindən indiyədək şəhid ailələrinə və müharibə əlillərinə 7600-ə yaxın mənzil və fərdi ev təqdim edilib. Bu kateqoriyadan olan insanlara göstərilən qayğı cari ildə də davam edəcək. Dövlət başçısının birbaşa tapşırığı ilə bu il şəhid ailələrinə və müharibə əlillərinə ən azı 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub.

Müharibə əlilləri və onlara bərabər tutulanların dövlət tərəfindən minik avtomobilləri ilə təminatı sahəsində xeyli işlər görülüb. 2018-ci ildə bu kateqoriyadan olan insanlara 265 avtomobil verildiyi halda, 2019-cu ildə 600 avtomobil verilib. Ümumilikdə, nazirlik tərəfindən müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə indiyədək 6750 minik avtomobili verilib.

*Ardı 2-ci səh.*

9 fevral Milli Məclisə seçkilər günüdür

## Təşviqat kampaniyası bərabərlik şəraitində keçir

Milli Məclisə fevralın 9-da keçiriləcək seçkilərdə iştirak etmək üçün 61 saylı Neftçala DSK üzrə 14 nəfərin namizədliyi qeydə alınmışdır. Onlar ayrı-ayrı siyasi partiyalar, təşəbbüs qrupları tərəfindən və müstəqil şəkildə irəli sürülmüşlər.

İndi təşviqat kampaniyasının qızğın çağıdır. Namizədlər seçicilərlə görüşlər keçirir, öz platformaları, seçiləcəkləri halda hansı məsələlərə diqqət yetirəcəkləri barədə məlumat verirlər. Görüşlərin keçirilməsi ilə əlaqədar namizədlər ilk növbədə, DSK-ya müraciət edir, hansı tarixdə, harada, saat neçədə seçicilərlə görüş keçirmək istədiklərini bildirirlər. Bu onun üçündür ki, hər bir namizəd vaxtdan səmərəli istifadə etsin, bu və ya digər ərazidə görüşlər üst-üstə düşməsin. Görüşlərin keçirilməsi üçün 16 qapalı və 16 açıq yer ayrılmışdır. Bunlarla bərabər 61 saylı Neftçala Seçki Dairəsinə daxil olan 41 seçki məntəqəsində MSK-nın təsdiq etdiyi Təqvim Planına uyğun olaraq, hazırlıq işləri davam etdirilir. Hazırda seçicilərə bildirişlər paylanılır.



Dairə üzrə 41 məntəqədə seçicilərin sayı 42 min 619 nəfərdir. Onların hamısının adı, soyadı, ünvanı seçici siyahılarında əksini tapmışdır. Seçicilər məntəqələrə gələrək siyahıda öz sıra nömrələrini müəyyən edirlər. 9 məntəqədə veb-kamera quraşdırılmışdır. Seçkiləri izləyəcək 525 nəfər müşahidəçi qeydə alınmışdır.

*Ardı 4-cü səh.*

## Prezident İlham Əliyev bu il də Davos Forumundan ölkəmizin milli maraqlarının təminatı üçün maksimum istifadə etdi

Əsas məqsədi dünyanın taleyinə birbaşa təsir edən mühüm strateji problemlərin və hadisələrin müzakirəsini keçirməkdən ibarət olan Davos Dünya İqtisadi Forumunda bu il də qlobal iqtisadiyyatda və siyasətdə mühüm rola malik problemlər müzakirə obyektləri sırasında mühüm yer tutdu.

Növbəti dəfə də diqqətçəkən əsas məqamlardan biri o oldu ki, forumda fəal iştirakı, maraqlı və strateji əhəmiyyət kəsb edən mülahizələrlə zəngin çıxışları, keçirdikləri çoxsaylı və yüksək səviyyəli işgüzar görüşləri ilə Azərbaycan Prezidenti İlham Əliyev diqqət mərkəzində oldu.




Davos-2020-nin əsas məziyyətlərindən biri bu forumun başlanmasından hələ bir neçə gün əvvəl Davos İqtisadi Forumunun saytında Azərbaycan Prezidentinin “Azərbaycanın vahid və dayanıqlı dünyada rolu” sərlövhəli və gələcəyə ünvanlanmış dərin məzmunlu tezislərlə zəngin məqaləsinin də dərcidir. Məqalədə Prezident İlham Əliyev Davos Forumunda iştirakın əhəmiyyətini iki baxımdan yüksək dəyərləndirir. Birincisi, bu dünyəvi forum Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə təqdim etmək üçün əlverişli bir platformadır.

*Ardı 3-cü səh.*

## «OPEC+» çoxtərəfli əməkdaşlığın uğurlu formatıdır




Prezident İlham Əliyevin 5 il öncə irəli sürdüyü təşəbbüs OPEC-in fəaliyyətində yenilik və möhkəm birlik yaradıb

**Dünyada qədim neft diyarı kimi tanınmış Azərbaycan Avrasiyada əsas neft-qaz ixracatçısı kimi nüfuzunu getdikcə yüksəltməkdədir. Bunu həyata keçirməklə ölkəmiz Avropanın və dünyanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.**

Eyni zamanda regionun lider dövlətlərindən birinə çevrilməklə həm bölgədə, həm də dünya miqyasında öz sözünə və sanbalına malik dövlət kimi inkişaf etməkdədir.

Ümummilli Lider Heydər Əliyevin dühası ilə reallığa çevrilən, Prezident İlham Əliyevin xarici diplomatiyası ilə daha da qüdrətlənən neft sənayesi müstəqilliyimizin təməl daşı hesab olunur.

### Azərbaycan OPEC əməkdaşlığı

Azərbaycan Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) ilə fəal əməkdaşlıq edir. 2016-cı ilin dekabrından isə OPEC və qeyri-OPEC ölkələrinin neft istehsalçıları neft hasilatını azaltmaq məqsədilə imzaladıqları tarixi bəyannamədən sonra əlaqələr daha da inkişaf etməyə başlayıb.

Neft ixrac edən ölkələr tərəfindən neftin qiymətinin tənzimlənməsi məqsədilə 1960-cı ildə Bağdadda keçirilən konfransda yaradılan OPEC-ə əvvəlcə İran, İraq, Küveyt, Səudiyyə Ərəbistanı və Venesuela təşkilata daxil olub. Bu 5 ölkəyə sonradan Qətər, (1961), İndoneziya (1962), Liviya (1962), Birləşmiş Ərəb Əmirlikləri (1967), Əlcəzair (1969), Nigeriya (1971), Ekvador (1973-1992), Qabon (1975-1994), Anqola (2007) və Ekvatorial Qvineya (2017) qoşulub. Təşkilatın qərargahı 1965-ci ildən Avstriyanın paytaxtı Vyana şəhərində yerləşir.

Azərbaycanın OPEC-lə əməkdaşlığı təşkilatın iclaslarında müşahidəçi statusunda iştirakı ilə aktivləşib. Yanvarın 20-24-də Prezident İlham Əliyevin Davosda Dünya İqtisadi Forumu çərçivəsində Neft İxrac edən Ölkələr Təşkilatının baş katibi Məhəmməd Barkindo ilə keçirdiyi görüş zamanı 4 il öncə imzalanan tarixi bəyannamədən söz açılıb.

*Ardı 3-cü səh.*

## Ötən ilin yekunları





*Əvvəli 1-ci səh.*

# Əhalinin sosial müdafiəsinin gücləndirilməsi davamlı xarakter daşıyır

Prezident İlham Əliyevin 2018-ci il 19 aprel tarixli və 28 yanvar 2019-cu il tarixli fərmanlarına əsasən, şəhidlərimizin vərəsələrinə birdəfəlik ödəmə (11 min manat) ilə təminatı sahəsində mühüm addımlar atıldı.

Aparılan araşdırmalar nəticəsində məlum oldu ki, şəhid hərbi qulluqçuların və daxili işlər orqanları ənəkdaşlarının sayı 12268 nəfərdir və onların vərəsələrinə birdəfəlik ödəmə verildi. Beləliklə, onlardan 12 minədək şəhidin 18 minədək vərəsəsinə nazirlik tərəfindən birdəfəlik ödəmə həyata keçirildi. Şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramının icra səviyyəsi 98 faizə çatıb. Qalan şəhidlərin vərəsələri tərəfindən də notarial qaydada sənədlər nazirliyə təqdim edildikcə onlara da birdəfəlik ödənişlərin verilməsi təmin ediləcək.

Ölkə rəhbərinin 9 avqust 2018-ci il tarixli fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılaraq ötən ilin may ayında fəaliyyətə başlayan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) və agentliyin 1 saylı Bakı DOST mərkəzi sosial sahədə vətəndaş məmnunluğuna yönəlik köklü islahatların bir təzahürü olmaqla keçən il sosial sahədə atılan uğurlu addımlardan biridir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST layihəsi dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb.

Prezident İlham Əliyev DOST Agentliyi və onun 1 saylı Bakı DOST mərkəzinin açılışı mərasimindəki çıxışında bu yeni sahənin ölkəmiz üçün əhəmiyyətini vurğulayaraq demişdir: "Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək".

Mərkəzdə əmək, məşğulluq, sosial müdafiə və sosial təminat, əlillik, reabilitasiya sahələri üzrə 132 növ xidmət təqdim edilir. Bura "Pensiya və sosial sığorta", "Sosial müavinətlər və təqaüdlər", "Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat", "Sosial xidmətlər və övladlığa götürmə məsələləri", "Əmək münasibətləri", "Məşğulluq xidmətləri", "Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri", "Bank və notarius xidmətləri" də daxildir. Beləliklə, vətəndaşların nazirlik üzrə bütün xidmətlərdən "bir pəncərə"dən faydalanmalarına imkan yaradılıb.

Ötən ilin 8 ayında 1 saylı Bakı DOST Mərkəzində 65 minə yaxın vətəndaş qəbul edilib. Gün ərzində təxminən 400-dək vətəndaşın müraciət etdiyi və xidmətlərdən faydalandığı mərkəzdə xidmətlərin vətəndaş məmnunluğunun səviyyəsi 95,2 faiz təşkil edir.

DOST Agentliyi keçən ilin dekabrın 3-6-da keçirilən "Bakutel-2019" - XXV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisində də uğurla iştirak edib və sərginin "Ən yaxşı debüt" sertifikatına layiq görülüb. 1 saylı Bakı DOST Mərkəzi sərgidə vətəndaşlara harada qeydiyyatda olmalarından asılı olmayaraq xidmətlər təqdim edib, sərgi zamanı 100-dən çox vətəndaş bu xidmətlərdən faydalanıb. Həmçinin "e-arayış" xidmətləri vasitəsilə vətəndaşlar elə oradaca real vaxt rejimində arayışlar əldə ediblər.

Keçən il dekabrın 24-də isə Prezident İlham Əliyevin iştirakı ilə Bakının Xəzər rayonunda 2 saylı Bakı DOST Mərkəzinin (Xəzər, Pirallahı) açılışı olub. Həmin mərkəz gün ərzində 250-300 vətəndaşı qəbul edir.

DOST Agentliyi "Könüllü DOST" proqramı ilə ölkəmizdə könüllülük hərəkatının genişlənməsində mühüm rol oynayır. "Könüllü DOST" proqramı üzrə 3 altproqram "Gənc DOST", "Gümüşü DOST" (pensiyaçılar üçün) və "Virtual DOST" altproqramları icra olunur. Könüllülük fəaliyyətinə, o cümlədən DOST mərkəzlərində könüllü fəaliyyətə olan böyük marağın göstəricisi kimi, "Könüllü DOST" proqramına indiyədək 6900-dək müraciət olunub və ötən dövrdə bu proqram üzrə 250-dək könüllü DOST mərkəzlərinə cəlb edilib. "Könüllü DOST" proqramı məzunlarından 17 nəfəri 1 saylı Bakı DOST Mərkəzinin əməkdaşı kimi fəaliyyətini davam etdirir.

2019-2025-ci illərdə Bakıda və bölgələrdə 31 DOST mərkəzinin yaradılması, o cümlədən DOST mərkəzləri şəbəkəsinin genişləndirilməsi proqramı çərçivəsində 2020-ci ildə Bakıda daha 2 DOST mərkəzinin, həmçinin Sumqayıt şəhərində, Abşeron, Şəki, Bərdə, Quba, Sabirabad rayonlarında DOST mərkəzlərinin yaradılması üçün işlər aparılır.

Ölkəmizə səfərə gələn mötəbər beynəlxalq qurumların nümayəndə heyətləri, eləcə də diplomatik korpus nümayəndələri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyi və 1 saylı Bakı DOST Mərkəzi ilə tanış olub DOST layihəsinin uğurlu bir yenilik, innovativ təcrübə olduğunu bildiriblər.

Dövlət əlilliyi olan şəxslərin reabilitasiyasını da diqqət mərkəzində saxlayır. Çünki cəmiyyətdən təcrid olunan insanlar bu yolla yenidən cəmiyyətə qaytarılıb təzədən əmək fəaliyyəti ilə məşğul olurlar. Ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bərpa mərkəzlərində 10457 nəfər əlilliyi olan şəxsə və sağlamlıq imkanları məhdud 18 yaşadək uşağa reabilitasiya xidmətləri göstərilib. Onlardan 8101-i stasionar, qalanları ambulator şəraitdə bərpa xidmətləri ilə təmin ediliblər. Həmin insanların sağlamlıqlarının bərpası üçün fizioterapevtik müalicə prosedurları əsasında kompleks reabilitasiya işləri aparılıb.

Keçən il nazirliyin Protez-Ortopedik Bərpa Mərkəzi 9682 nəfər əlilliyi olan şəxsə protez-ortopedik bərpa xidmətləri göstərib. Onlardan 1069 nəfəri ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərdir. Həmçinin qeyd olunan dövrdə mərkəz tərəfindən əlilliyi olan şəxslərə 38041 reabilitasiya vasitəsi (2052 əlil arabası, 1732 protez, 1386 ortez, 9395 müxtəlif reabilitasiya vasitəsi, 554 korset, 2830 cüt protez ayaqqabı, 4192 cüt ortopedik ayaqqabı, 518 dördayaqlı dayaq vasitəsi, 3203 qoltuqaltı və dirsəkaltı ağac, 2693 əsa, 678 eşitmə aparatı və s.) verilib, 745 nəfərə stasionar şəraitdə reabilitasiya xidmətləri göstərilib. Eyni zamanda vətəndaşların bu xidmətdən asan şəkildə istifadə etməsi üçün zəruri tədbirlər görülür. Belə ki, ötən il mərkəz tərəfindən səyyar xidmət olaraq 1124 nəfər əlilliyi olan şəxsə 4821 reabilitasiya vasitəsi yaşadıqları şəhər və rayonlara aparılaraq təqdim edilib.

Dövlət başçısının tapşırıqları əsasında ötən il reabilitasiya və sosial xidmət infrastrukturunun müasir tələblərə uyğun qurulması istiqamətində mühüm işlər aparılıb. Bu məqsədlə keçən il Yevlax və Naftalan şəhərlərində Əlilliyi olan şəxslər üçün regional bərpa mərkəzləri, Mərdəkan Müalicə Pansionatı, Protez-Ortopedik Bərpa Mərkəzi, Gəncə Pensiyaçılara Ərazi Sosial Xidmət Mərkəzi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib.

Hazırda Sumqayıt, Şəki, Şirvan, Xaçmaz, Lənkəran regional bərpa mərkəzlərində, Şağan Əlilliyi olan şəxslər üçün Müalicə Pansionatında, Göygöl və Şamaxı Psixonevroloji sosial xidmət müəssisələrində əsaslı təmir və yenidənqurma işləri davam edir. Yaxın aylarda onlardan bir hissəsi, həmçinin Qobustan rayonunda inşa edilən penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi istifadəyə veriləcək.

Ötən il Gəncə şəhərində Peşə Hazırlığı Mərkəzi də istifadəyə verilib. Bununla yanaşı, dövlət başçısının tapşırığına əsasən, bərpa mərkəzləri şəbəkəsinin ölkəboyu genişləndirilməsi işlərinə də başlanılıb. 2020-ci ildə ayrı-ayrı bölgələrdə uşaq bərpa mərkəzlərinin tikintisinə başlanması da nəzərdə tutulub. Keçən ildən davam edən işlərin sayəsində bu il daha 10 reabilitasiya mərkəzinin və sosial xidmət müəssisəsinin istifadəyə verilməsi planlaşdırılır.

Dövlət başçısının "Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 2 dekabr 2019-cu il tarixli Sərəncamı da mühüm önəm kəsb edir. Belə ki, sərəncamla bir sıra sosial təyinatlı obyektlərin, o cümlədən reabilitasiya müəssisələrinin layihələndirilməsi, tikintisi, əsaslı təmiri, bərpa yolu ilə gücləndirilməsi və avadanlıqlarla təchizatı işlərinin genişlənməsinə şərait yaradır. Bunun üçün 20 milyon 19 min 100 manat vəsait ayrılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzi tərəfindən bu kateqoriyadan olan gənclər peşə hazırlığına cəlb edilirlər. Keçən il 227 gənc mərkəzə qəbul olunub. 2018-ci ildən təlimi davam etdirən 78 nəfər də daxil olmaqla il ərzində 305 nəfər peşə reabilitasiya kursunda olub. Gənclər burada dövlət hesabına yataqxana, yemək, tibbi-fizioterapevtik xidmətlə də təmin ediliblər.

Əhaliyə göstərilən sosial xidmətlər daim təkmilləşdirilir. Məqsəd bu xidmətlərdən istifadənin asanlaşdırılmasıdır. Nazirliyin sosial xidmət müəssisələrində müvafiq kateqoriyalardan olan şəxslərdən ibarət 1100 nəfərə stasionar şəraitdə reabilitasiyayönümlü sosial xidmətlər göstərilib. Onlardan 9800 nəfəri - tənha ahıl və əlilliyi olan şəxslər evlərində bu xidmət növündən faydalanıb.

Prezident İlham Əliyevin "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında" 1 iyun 2019-cu il tarixli Sərəncamının icrası sayəsində nazirliyin sosial sifarişləri əsasında uşaqlar və digər şəxslər üçün sosial xidmət mərkəzlərinin sayı 3,5 dəfə artırılıb. Hazırda 200-ə yaxın mərkəz tərəfindən əsasən uşaqlardan ibarət 10 minədək şəxsə reabilitasiyayönümlü sosial xidmətlər göstərilir. Ümumilikdə, ötən il stasionar, yarımstasionar və evdə xidmət formasında 20 mindən çox insan sosial xidmətlə təmin edilib.

Həyata keçirilən sosial siyasətin əsas məqsədi ehtiyacı olan hər bir Azərbaycan vətəndaşına qayğı göstərməkdir. Ünvanlı dövlət sosial yardımının göstərilməsinin məqsədi də bu amala xidmət etməkdir. Keçən il ünvanlı dövlət sosial yardımı proqramının əhatə dairəsi 70 faizə qədər genişlənib və 72 min aztəminatlı ailəyə ünvanlı dövlət sosial yardımı ödənilib. Bir ailəyə düşən orta aylıq yardım məbləği 209 manatdır. Ünvanlı dövlət sosial yardımı ödənilən ailələrin üzvlərinin 55 faizə yaxını uşaqlardır. Cari ildə bu proqramın daha da genişləndirilməsi təmin olunacaq.

"Aztəminatlı ailələrə birdəfəlik yardım göstərilməsi haqqında" 23 dekabr 2019-cu il tarixli sərəncam dövlət başçısının aztəminatlı ailələrin maddi təminatlarının yaxşılaşdırılmasına qayğısının daha bir təzahürüdür. Sərəncamda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 100 manat məbləğində birdəfəlik yardım göstərilib.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə fond tərəfindən 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə respublika üzrə ünvanlı dövlət sosial yardımı alan ailələrə bayram sovqatları paylanılmışdır.

"Azərbaycan Respublikasında 2020-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanunu ilə ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə bu il üçün ehtiyac meyarının həddinin 160 manata çatdırılması aztəminatlı ailələrə göstərilən qayğının nəticəsidir. Belə ki, 2006-cı ildən (ÜDSY tətbiq olunduğu ildən) ötən dövrdə ölkəmizdə ehtiyac meyarının həddinin 5,3 dəfə artırılması təmin edilib ki, bu da aztəminatlı ailələrin sosial müdafiəsinin ildən-ilə gücləndirilməsinə xidmət edir.

Məlumdur ki, sosial müdafiənin ən yaxşı forması əhalinin işlə təminatının yüksək səviyyəyə çatdırılmasıdır. İşləyən, yüksək əməkhaqqı alan vətəndaşın sosial yardıma ehtiyacı qalmır. Odur ki, dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsas prinsiplərindən biri də əhalinin məşğulluğunun təmin edilməsidir.

Ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən həyata keçirilən tədbirlər nəticəsində 103028 şəxs münasib işlə təmin edilib, 3168 şəxs peşə hazırlığı kurslarına cəlb olunub, 135 minə yaxın vətəndaşa peşəyönümü məsləhət xidməti göstərilib.

Dövlət Məşğulluq Xidmətinin Bakı və Göyçay şəhərlərindəki regional peşə təhsili mərkəzləri fəaliyyət göstərir. Keçən ilin dekabr ayında Gəncə Peşə Hazırlığı Mərkəzi də istifadəyə verilib. Həmin mərkəzdə ilk mərhələdə 60 peşə üzrə il ərzində 900 nəfərədək şəxsin peşə hazırlığı həyata keçiriləcək. Bununla yanaşı, "2019-2030-cu illər üçün Məşğulluq Strategiyası"nda hədəflər sırasında 2019-2030-cu illər ərzində Azərbaycanda regional peşə tədrisi mərkəzlərinin sayının 10-a çatdırılması nəzərdə tutulub.

2019-cu ildə 56 rayon və şəhərdə mütəmadi olaraq əmək yarmarkaları da keçirilib. Bu yarmarkalarda 1324 müəssisə iştirak edib və 15183 vakant iş yeri təqdim edilib. 3411 nəfərə münasib iş yerlərinə göndəriş verilib, 298 nəfərin peşə hazırlığı kurslarına qeydiyyatı aparılıb, 311 nəfər istəkləri əsasında ödənişli ictimai işlərə cəlb edilib.

Dövlət başçısının tapşırığı ilə 2019-cu ilin əvvəlindən "İşsizin DOSTu" proqramı çərçivəsində 38 min ödənişli ictimai iş yeri yaradılıb. Məşğulluq mərkəzlərində qeydiyyatda olan, əsasən həssas qruplardan olan 47 min işsiz və işaxtaran şəxsin "İşsizin DOSTu" proqramı çərçivəsində yaradılmış iş yerlərində haqqı ödənilən işlərlə təminatı həyata keçirilib. Belə iş yerləri ilkin peşə hazırlığı olmasını tələb etməyən ictimai faydalı xarakter daşıyır. Ödənişli ictimai işlərə sosial xidmətlərin göstərilməsi, təmir, abadlaşdırma, ərazilərin ekoloji sağlamlaşdırılması, o cümlədən yaşıllaşdırma işləri, parklara, ictimai yerlərə qulluq və s. daxildir.

"İşsizin DOSTu" proqramı çərçivəsində ictimai işlərə cəlb olunanların hər biri ilə əmək müqaviləsi bağlanıb. Bu əmək müqavilələri nazirliyin "Əmək müqaviləsi bildirişi" altsistemində qeydiyyatdan keçirilərək rəsmiləşdirilir. Belə hal həmin şəxslərin sosial sığorta sistemində qeydiyyata alınmaqla gələcəkdə pensiya hüquqlarının yaranmasına əsas yaradır, yaxud mövcud fərdi hesablarında pensiya kapitallarını artırmalarına imkan verir. Cari ildə də ictimai işlər proqramı davam etdiriləcək.

Özünüməşğulluq proqramının əhatə dairəsi 2017-ci ilə nisbətən 2018-ci ildə 6,5 dəfə genişləndirilib və 7267 nəfər özünüməşğulluğa cəlb edilərək onlara verilmiş aktivlər hesabına ailə təsərrüfatlarını yaradıblar. Ötən il isə özünüməşğulluq proqramına 10354 nəfər cəlb edilib və müvafiq təlimləri başa vuraraq biznes planlarını uğurla müdafiə ediblər. Onlardan 9 min nəfəri mal və materiallar formasında öz aktivlərini alaraq ailə təsərrüfatlarını yaradıb. Hazırda aktivlərin paylanma prosesi davam edir, cari il yanvarın sonuna qədər qalanları da aktivlərlə təmin olunacaq.

Özünüməşğulluq proqramında həssas əhali qruplarına üstünlük verilir. Keçən il bu proqrama cəlb edilənlərdən 2373-ü əlilliyi olan şəxslər, 1860-ı məcburi köçkünlər, 479-u ünvanlı sosial yardım alanlar, 257-si şəhid ailəsi üzvləri, 134-ü cəzaçəkmə müəssisəsindən azad edilənlərdir.

Ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi islahatlara beynəlxalq səviyyədə verilən yüksək qiymətin növbəti göstəricisi isə keçən ilin mayında Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) növbəti Avropa Regional Sosial Təminat Forumunun Bakıda keçirilməsidir. Ölkəmizin evsahibliyi etdiyi forumda BSTA-dan, digər beynəlxalq qurumlardan və 35 ölkədən 140-dan çox nümayəndə iştirak edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial-iqtisadi layihələrin icrasında elektron texnologiyalara geniş yer verilməsi beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Bunun təzahürü kimi BSTA tərəfindən ünvanlı dövlət sosial yardımı üzrə elektron sistem, əlilliyin qiymətləndirilməsi üzrə elektron sistem, özünüməşğulluq proqramı və qeyri-rəsmi məşğulluğun qarşısının alınması layihələri uğurlu təcrübə nümunələri kimi müsbət dəyərləndirilərək mükafatlara layiq görülüb.

Ötən il sosial müdafiə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və sadələşdirilməsi, sosial təminat sistemində ədalətlilik prinsipinin gücləndirilməsi, həssas qruplardan olan vətəndaşlarla bağlı humanist yanaşmanın daha dolğun tətbiqi, eləcə də müvafiq uyğunlaşdırmanın aparılması sahəsində də addımlar atılıb.

Prezident İlham Əliyevin 2019-cu il dekabrın 16-da təsdiqlədiyi yeni qanunlar əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət etməklə yanaşı, sosial təminat sisteminin təkmilləşdirilməsində də növbəti addımdır. Bu qanunlarla yaşa görə əmək pensiyası və yaşa görə müavinət hüququ verən yaşlar arasında uyğunsuzluq 2020-ci il yanvarın 1-dən aradan qaldırılıb, hər iki sosial təminat növü üzrə hüquq yaranan yaş hədləri eyniləşdirilib.

Əgər bu ilin əvvəlinədək qadınlar (yaşa görə pensiya hüququ olmadıqda) yaşa görə müavinət hüququnu 62 yaşda, kişilər (yaşa görə pensiya hüququ olmadıqda) isə 67 yaşda qazanırdısa, bu ilin əvvəlindən bu yaş həddi pensiya hüququ yaranan yaş həddi ilə eyniləşdirilib. Beləliklə, 2020-ci il yanvarın 1-dən qüvvəyə minən yeni qanunla hazırda yaş həddi 61 il 6 ay olan qadınlar və yaş həddi 64 il 6 ay olan kişilər (yaşa görə pensiya hüquqları olmadıqda), bu ayın 1-dən yaşa görə müavinət hüququ qazanıblar.

Yaşa görə müavinətin təyinatı ötən il elektronlaşdırılıb və həmin şəxslərə bu müavinət elektron qaydada təyin olunur. Onlara yaşa görə müavinət təyin edilməsi üçün hər hansı quruma müraciət etmələrinə və sənəd təqdim olunmasına ehtiyac qalmır. Vətəndaşa elektron qaydada müavinətin hansı bankdan alınması barədə bildiriş SMS vasitəsilə göndəriləcək. SMS göndərilməsi üçün adına nömrə yoxdursa, vətəndaş məlumatı nazirliyin 142-Çağrı Mərkəzindən və ya nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun yerli şöbəsindən əldə edə bilər. Bundan sonra şəxsiyyət vəsiqəsini təqdim etməklə müvafiq bankdan kartı ala bilər.

Yeni qanunvericiliyə görə, beş və daha çox uşaq doğub onları səkkiz yaşınadək tərbiyə etmiş qadınların yaşa görə müavinət hüququ qazanmaq üçün yaş həddi hər uşağa görə 1 il azaldılır. Belə ki, beş uşaq doğub onları səkkiz yaşınadək tərbiyə etmiş qadının yaşı hazırda 56 yaş yarımdırsa və pensiya hüququ yoxdursa, o zaman ona yaşa görə müavinət təyin edilir. Uşaqların sayı 6 olduqda bu yaş göstəricisi 55 yaş yarım, 7 olduqda 54 yaş yarım və s. yaş həddinə enir. Sağlamlıq imkanları məhdud uşağını səkkiz yaşınadək tərbiyə etmiş anaların da yaşa görə müavinət hüququ qazanmaq üçün yaş həddi 5 il azaldılır.

Ailə başçısını itirmiş ailəyə ailə başçısını itirməyə görə pensiya və ya müavinətdən daha yüksək məbləğdə olanını seçmək hüququnun verilməsini nəzərdə tutan qanunvericilik layihəsi hazırlanaraq qəbul edilib və cari ilin əvvəlindən qüvvəyə minib.

Ailə başçısını itirmiş sağlamlıq imkanları məhdud uşaqlara hüququ çatan iki müavinət növündən (ailə başçısını itirməyə görə müavinət və sağlamlıq imkanları məhdudluğuna görə müavinət) yalnız birini seçə bilməsi kimi məhdudiyyətin aradan qaldırılmasını, onların hər iki müavinəti ala bilmək hüququna malik olmalarını nəzərdə tutan qanunvericilik layihəsi hazırlanaraq qəbul edilib və ilin əvvəlindən qüvvəyə minib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyev bu il də Davos Forumundan ölkəmizin milli maraqlarının təminatı üçün maksimum istifadə etdi




*Əvvəli 1-ci səh.*

İkinci tərəfdən isə bu mötəbər toplantıya qatılmaq dünyada baş verən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etmək imkanından yararlanmaqla ölkəmizdə islahatları davamlı şəkildə aparmağa, ölkəyə xarici investisiyaları cəlb etməyə imkan verir.

Prezident İlham Əliyevin Davos-2020 Forumu iştirakçılarının böyük marağına səbəb olmuş bu məqaləsində tamamilə haqlı olaraq Azərbaycanı strateji nəqliyyat qovşağı və enerji sektorunda əsas iştirakçı kimi dəyərləndirməklə bərabər, çox mühüm və aktual fikirlər ehtiva olunmuşdur. Məsələn, ölkəmizin nəqliyyat və yol infrastrukturunun əhəmiyyətli inkişafında xarici və yerli investisiyaların cəlb olunması ilə yanaşı, bu uğurun qazanılmasında əməkdaşlığın önəmli rol oynaması vurğulanmışdır. Digər bir mühüm məqam isə dünyanı lərzəyə salan ekoloji kataklizmlərin gücləndiyi bir zamanda ölkəmizdə ən mühüm problemlərdən biri ekoloji tarazlığın qorunub saxlanılması yolu ilə vətəndaşlarımızın sosial-iqtisadi inkişafına qarşıya məqsəd qoymasıdır ki, bu da Davos-2020-nin müzakirəyə çıxardığı ən mühüm problemlər ilə üzvi surətdə uzlaşır.

Məqalədə dünya iqtisadi forumu iştirakçılarının diqqətinə çatdırılan digər mühüm cəhət ölkəmizdə təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi strategiyasıdır. Bu fikir məqalədə belə əks edilmişdir: “Təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi məqsədilə “Ağıllı şəhər” konsepsiyasına start verilib. Bu konsepsiyanın məqsədi resursların istehlakı, israfı və ümumi xərcləri azaltmaqla eyni nəqliyyat və kommunal xidmət kimi şəhər xidmətlərinin keyfiyyətini artırmaqdır”.

Cənab İlham Əliyevin bu il Davosda keçirdiyi çoxsaylı və ölkəmizin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edən görüşləri içərisində Dünya İqtisadi Forumunun prezidenti Borgi Brende ilə görüşünü xüsusi vurğulamaq istərdik. Bu görüş 2019-cu ildə keçirilmiş görüşün məntiqi davamı kimi qiymətləndirilə bilər.

Xatırladaq ki, ötən iki görüşdə Azərbaycan hökuməti ilə Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında ilk dəfə olaraq əməkdaşlığın təməli qoyulmuşdur. Bu məqsədlə Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında əməkdaşlıq sazişinin təntənəli mübadiləsi həyata keçirilmişdir. Prezident İlham Əliyev Azərbaycan hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında əməkdaşlıq sazişinin vacibliyini qeyd edərək demişdir ki, bu sənəd bizim tərəfdaşlıq ruhumuzu və qarşılıqlı səylərimizi davam etdirməkdə istəkli olduğumuzu nümayiş etdirir. Dövlət başçısı bəyan etmişdir ki, Azərbaycan dördüncü sənaye inqilabının hədəflərinin həyata keçirilməsində çox fəal iştirak edəcək.

Bu il keçirilən görüşdə Dünya İqtisadi Forumunun Azərbaycanda regional mərkəzinin yaradılması haqqında niyyət protokolu da imzalanmışdır. Sənədə əsasən forumun ölkəmizdə afilə edilmiş regional mərkəzi yaradılacaq. Onu da qeyd edək ki, bu cür mərkəzlər çox məhdud sayda ölkələrdə yaradılır və onların əsas məqsədi dördüncü sənaye inqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsidir.

İmzalanma mərasimində Prezident İlham Əliyevin söylədiyi fikirlər yeni dövrün çağırışlarına ünvanlanmışdır: “Bu, bizim əlaqələrimizin yeni səhifəsi üçün yaxşı başlanğıcdır.... Biz çox fəxr edirik ki, Davos Forumu ilə bu mühüm sənədi imzalayan ilk ölkələr arasındayıq. Bu, həqiqətən də bizim əlaqələrimizdə yeni səhifədir. Ümidvaram ki, gələcək keçmiş qədər uğurlu olacaq”.

Tədbirdə Dünya İqtisadi Forumu prezidentinin cənab İlham Əliyevə ünvanladığı sözlər də diqqət çəkir: “Biz, həmçinin bilirik ki, Siz qarşıya hədəf qoyanda onu həyata keçirirsiniz. Düşünürəm ki, Azərbaycan dördüncü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacaq”.

Cənab Borge Brendenin bu sözlərinin təsdiqi kimi ötənilki Davos Forumundan cəmi bir ay sonra - 2019-cu il fevralın 22-də Prezident İlham Əliyevin fərmanı ilə əsas məqsədi biliyə və innovasiyaya əsaslanan iqtisadiyyat qurmaq, innovasiya mühitini yaxşılaşdırmaq, innovasiya potensialından səmərəli istifadə etmək, innovasiya fəaliyyətinin tənzimlənməsi sistemini təkmilləşdirmək, müvafiq istiqamətdə dəstək mexanizmlərini formalaşdırmaq, innovativ elmi tədqiqatların və layihələrin ölkə iqtisadiyyatında rolunun və rəqabət qabiliyyətinin artırılması əsasında dayanıqlı inkişafı təmin etmək, innovativ inkişaf səhəsində səmərəliliyi artırmaq, sahibkarlığın və cəmiyyətin mənafeyi üçün elm əsaslı innovasiyaları təşviq etmək və müvafiq sahədə fəaliyyət göstərməkdən ibarət olan Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılmasını göstərmək olar.

Artıq bir reallıqdır ki, yaxın onilliklərdə qabaqcıl texnologiyaların və süni intellektin üstünlüklərindən istifadə hər bir ölkənin sürətli və dayanıqlı inkişafının əsasını təşkil edəcək. Süni intellekt, robototexnika, proseslərin avtomatlaşdırılması, operativ yaddaşda blokçeynlərin və bir sıra başqa iri məlumatların hesablanması və təhlili kimi inkişaf etməkdə olan mütərəqqi texnologiyalar yeni intellektual ekosistemin yaranmasına gətirib çıxaracaq ki, bu da az xərclə əlavə rəqabət üstünlüklərinə malik olmağa zəmin yaradacaq.

Hazırda süni intellekt bütün dünyada debitor və kreditor borcları, ödənişlərin başlanması və məhsul göndərilməsi ilə bağlı sifarişlərin müqayisə edilməsi, məlumatların təsnifatı və təhlili, əməkhaqqının hesablanması, audit aparılması və vergilərin köçürülməsi kimi bir çox ənənəvi mühasibat vəzifələrini yerinə yetirir, mühasibat uçotunu, üzləşmələri və maliyyə hesabatlarının bununla əlaqəli digər funksiyalarını avtomatlaşdırır.

İnsan potensialına həmişə xidmətlər bazarında böyük tələbat var. Lakin bu tələbat gələcəkdə mütəmadi olaraq artacaq və dəyişəcək. Əgər bu gün minimum Word Power Point, Excel kimi ofis proqramlarını idarəetmə bacarığı və ən azı iki dilin mənimsənilməsi tələb olunursa, sabah blokçeyn və “bulud” texnologiyalarından istifadə etmək bacarığına tələbat meydana çıxacaq, gələcəkdə isə artıq süni intellektə (Sİ) tələbat özünü büruzə verəcək. Hazırda dünyada elə şirkətlər var ki, onlar öz iş yerlərinə yeni kadrları götürməyə hazırdırlar. Bu şirkətlər öz investisiyaları sayəsində onlardan, necə deyərlər, “öz kadrları”nı hazırlamaq istəyirlər. Həmin kadrlar öz ixtisaslarını daha da təkmilləşdirmək üçün müxtəlif kurslarda və seminarlarda iştirak edəcəklər. Ona görə də işsizliyin yaranmaması üçün insanlar, ilk növbədə gənclər, bugünkü tələbələrdən geri qalmamalı və onlarla birlikdə irəli getməyə çalışmalıdırlar.

Təbii ki, bu yazıda Prezident İlham Əliyevin Davos-2020-də gördüyü gərgin və səmərəli işin bütün cəhətlərini əhatə etmək çətindir. Amma Prezidentin daha bir görüşü barədə söz deməyi özümüzə borc bilirik. Cənab İlham Əliyev “Carlsberg Group” şirkətinin baş icraçı direktoru Cees't Hart ilə görüşündə ölkəmizdə son illər aparılan islahatların artıq müsbət nəticələr verdiyini, bunun xüsusilə şəffaflığın və hesabatlığın artırılması hesabına vergi və gömrük orqanlarının topladığı büdcə gəlirlərində özünü göstərdiyini qeyd etmişdir. Eyni zamanda dövlət başçısı ölkəmizdə investisiya və biznes mühitinin daha da əlverişli olması istiqamətində islahatların davam etdiriləcəyini, xarici və yerli investorlar üçün vergi, gömrük və digər sahələrdə proqnozlaşdırıla bilən siyasətin həyata keçiriləcəyini vurğulamışdır.

Öz növbəsində “Carlsberg Group” şirkətinin baş icraçı direktoru Cees't Hart dövlət başçısı tərəfindən son illər aparılan uğurlu islahatlardan, Azərbaycandakı əlverişli biznes və investisiya şəraitindən məmnunluğunu ifadə etməklə bu tədbirlərin biznes və rəqabət mühitinin sağlamlaşdırılması, həmçinin şəffaflığın artırılması üçün geniş imkanlar yaratdığını bildirmişdir. Baş icraçı direktor “Carlsberg Group” olaraq xarici investor kimi bu islahatlara hər zaman dəstək verdiklərini və bu dəstəyin bundan sonra da davam etdiriləcəyini söyləmişdir.

Bu görüşün xüsusi əhəmiyyətini vurğulamaqda məqsədimiz odur ki, şəffaflığın artırılması nəticəsində daha çox xarici investor cəlb edilməsi mümkün olur və əksinə, şəffaflıq lazımi səviyyədə olmadıqda xarici investisiya da daxil olmaqla investisiya cəlbediciliyi nəzərəçarpacaq dərəcədə zəifləyir.

Son vaxtlar ölkəmizdə ikili mühasibatlığın ləğvi, gəlirlərin düzgün bəyan edilməsi, hesabatların reallığı və şəffaflığın artırılması, vergi, gömrük nəzarətinin təkmilləşdirilməsi, kölgə iqtisadiyyatının aradan götürülməsi istiqamətində tədbirlər sistemi işlənib hazırlanaraq uğurla həyata keçirilir. Bütün bunlar ölkəmizdə iqtisadi inkişafın davamlılığının və şəffaflığın təmin edilməsində mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və tətbiqi üçün yeni imkanlar yaradır.

Prezident İlham Əliyev demişdir: “Azərbaycanda görülən işlər dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsində olmalıdır. Biz o səviyyəyə qalxmalıyıq. Biz ona yaxınlaşmışıq, bir çox hallarda lap yaxınlaşmışıq. Amma hələ böyük işlər görülməlidir. Ölkəmizdə bütün işlər - iqtisadiyyat, sosial siyasət və bütün başqa məsələlər müasir səviyyədə olmalıdır”.

Fikrimizcə, Davos Dünya İqtisadi Forumunda əldə olunanlar, Prezidentin sözləri ilə desək, Azərbaycanda islahatları davamlı şəkildə aparmağa və xarici investisiyaları cəlb etməyə imkan yaratmaqla bərabər, son 17 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmizə yeni hədəflərə doğru inamla irəliləməkdə və sosial-iqtisadi inkişafın bütün sahələrində böyük uğurlar qazanmaqda mühüm rol oynayacaq.

***Vahid NOVRUZOV,***
***Azərbaycan Respublikası***
***Auditorlar Palatasının sədri,***
***iqtisad elmləri doktoru, professor***

# Azərbaycanın və Ermənistanın Xarici İşlər nazirlərinin görüşü yeddi saat davam edib

Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin vasitəçiliyi ilə yanvarın 29-da Cenevrədə keçirilən görüşü yeddi saat davam edib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, ümumilikdə tərəflər, eləcə də ATƏT-in Minsk qrupunun həmsədrləri danışıqların intensivləşdirilməsi və danışıqlar gündəliyindəki bütün məsələlər üzrə konkret nəticələrin əldə olunması mövqeyindən çıxış edirlər.

Yanvarın 30-da danışıqların növbəti raundu keçiriləcək.

# Azərbaycan Texniki Universitetinin tələbələri könüllü qismində Müdafiə Sənayesi Nazirliyinin müəssisələrinə cəlb ediləcəklər

Müdafiə Sənayesi Nazirliyində Azərbaycan Texniki Universitetinin kollektivi ilə görüş keçirilib.

AZƏRTAC MSN-in saytına istinadla xəbər verir ki, Müdafiə Sənayesi naziri Mədət Quliyev Azərbaycan Texniki Universitetinin rektoru professor Vilayət Vəliyev, xüsusi texnika və texnologiyalar fakültəsinin dekanı professor Elçin Rzayev və xüsusi texnika kafedrasının müdiri Ələkbər Hüseynovla görüşüb.

Görüşün məqsədi universitetdə yeni süni intellekt və robotlaşdırma ixtisasının yaradılması, tələbələrin təcrübə qazanmalarına şərait yaradılması və könüllülər qismində müəssisələrin iş prosesinə cəlb edilməsinin müzakirəsi olub.

Prezident İlham Əliyevin sərəncamı ilə 2020-ci ilin Azərbaycanda “Könüllülər ili” elan olunduğunu qeyd edən Mədət Quliyev universitetin tələbələrinin də könüllülər qismində müəssisələrə cəlb edilmələri, iş prosesi ilə yaxından tanış olmaları və ən əsası, könüllülük prinsipi çərçivəsində təcrübəyə yiyələndikdən sonra gələcəkdə əmək fəaliyyətlərinə bu müəssisələrdə başlamaları təklifini irəli sürüb. Nazir tələbələrin ixtisasları üzrə təcrübə qazanmaları və gələcəkdə işlə təmin olunmaları üçün rəhbərlik etdiyi qurumda lazımi şəraiti yaratmağa hazır olduğunu diqqətə çatdırıb.

Söhbət zamanı Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü ilə müəssisələrdə xüsusi texnika kafedrasının nümayəndəliyinin açılması və tələbələrin nəzəri biliklərinin təcrübə ilə əlaqələndirilməsinə şərait yaradılması məsələsi müzakirə olunub.

Görüşdə digər məsələlərlə bağlı da fikir mübadiləsi aparılıb.

# «OPEC+» çoxtərəfli əməkdaşlığın uğurlu formatıdır

*Əvvəli 1-ci səh.*

Baş katib bildirib ki, bu bəyannamə məhz Azərbaycan Prezidentinin təşəbbüsü ilə reallaşıb: “Cənab Prezident, xatırlayırsınızsa, beş il bundan əvvəl bu Dünya İqtisadi Forumunda Siz OPEC-ə üzv olan və OPEC-ə üzv olmayan ölkələrin bir araya gəlməsi və birlikdə çalışması ilə bağlı çağırış edən dünya liderlərindən birincisi olmusunuz. Belə bir təşəbbüslə əvvəllər heç kim çıxış etməmişdir. Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz. Bizim hamımızın bir araya gəlməsi və birlikdə çalışmağımız üçün buradakı qlobal platformadan istifadə edərək hamımıza çağırış etdiniz. Çünki Siz də dediyiniz kimi, biz hamımız eyni vəziyyətdə idik. Çünki biz hamımız eyni nefti istehsal edirdik və onu eyni bazarlara satırdıq”.

## Cənab İlham Əliyevin təklifi və 24 ölkənin imzaladığı bəyannamə

Baş katibin dediyi kimi, həmin zaman bazarda neftin qiyməti 80 faizdən çox aşağı düşmüşdü, təxminən 30 dollar ətrafında idi. Azərbaycan Prezidentinin uzaqgörən rəhbərliyi, çağırışı nəticəsində OPEC üzvləri və üzv olmayan ölkələr birgə fəaliyyətə başlayıblar. 2016-cı il dekabrın 10-da, daha dəqiq, 12 ay müddətində əməkdaşlıq bəyannaməsini 24 ölkə imzalayıb.

Bu tarixi hadisəni Məhəmməd Barkindo belə dəyərləndirib: “Tarixdə ilk dəfə idi bu, baş verirdi. Sizin rəhbərliyiniz, Sizin baxışınız sayəsində biz bunu etdik. Biz bunu heç vaxt unutmayacağıq, cənab Prezident. Bu, bizim üçün çox önəmlidir və Sizin də qeyd etdiyiniz kimi, ötən beş ildə biz Azərbaycanla çox sıx işləmişik və Azərbaycan qəbul edilmiş bütün qərarlara sadiq qalmışdır”.

Cənab İlham Əliyev isə vurğulayıb ki, Davosda bu məsələ ilə bağlı çıxış yolu axtarılanda öz təklifini irəli sürüb və bu da qurumun rəhbərliyi tərəfindən müsbət qarşılanıb: “Davosda mənə bu məsələ ilə bağlı nə etmək lazım olduğu barədə sual verildi və mən bu təklifi irəli sürdüm. Bu təklifi ciddi nəzərə aldığına görə OPEC-ə minnətdaram və biz həqiqətən çox nadir tərəfdaşlıq formatını yaratdıq. Hesab edirəm ki, bu formata malik olan, lakin təkcə format yox, eyni zamanda, qərarları səmərəli icra edən başqa belə bir beynəlxalq təşkilat yoxdur. Bəzən hətta bir təşkilat daxilində razılığa gəlmək mümkün olmur. Lakin OPEC-ə üzv olan və üzv olmayan ölkələr, böyük və kiçik neft istehsalçıları birləşdilər. Çünki bu, bizim ümumi məqsədimiz idi”.

Dövlət başçısı qeyd edib ki, Azərbaycan artıq OPEC üzvü kimi özünü göstərir və “OPEC+” formatında görüşlərin birinin Bakıda keçiriləcəyi ilə bağlı müsbət qərar bu əməkdaşlığı daha da gücləndirəcək.

Elə Davos Forumu çərçivəsində Rusiyanın “Rossiya-24” televiziya kanalına müsahibəsində də cənab İlham Əliyev məhz bu mövzu ilə bağlı maraqlı fikir və təkliflərini səsləndirib. Dövlət başçısı ilk növbədə hesab edir ki, bu gün dünyada neftin ədalətli qiymətini müəyyənləşdirməyə kömək edən çoxtərəfli əməkdaşlığın uğurlu formatı “OPEC+”dur. Çünki neft bazarının iştirakçıları arasındakı sövdələşmə öz səmərəsini göstərdi. Onu uzatmaq gərəkdir.

## “OPEC+” sazişinin müddətinin uzadılması məqsədəuyğundur

Cənab İlham Əliyev “OPEC+” sazişinin müddətinin uzadılmasını da müsbət addım hesab edir: “Bu məsələ ən yaxın vaxtlarda müzakirə ediləcək. Lakin hesab edirəm ki, konkret nəticələr gördüyümüzü nəzərə alaraq bunun müddətinin uzadılması, əlbəttə, məqsədəuyğundur. Çünki müddət uzadılmasa, bazarın necə reaksiya verəcəyini bilmirik, yenidən müxtəlif spekulyativ meyillər yarana bilər. Buna görə hesab edirəm ki, müddətin uzadılmasının əhəmiyyəti var”.

Azərbaycan Prezidenti eyni zamanda söyləyib ki, bu gün dünya məhz çoxqütblü dünya kimi inkişaf edir. Lakin narahatedici məsələlər də var. Bu da regionumuzda gərginliyin artmasıdır. Lakin bu prosesdə müsbət dinamika da görünür: “Əvvəllər bu cür sıx qarşılıqlı fəaliyyəti olmayan ölkələr bu gün demək olar ki, müttəfiqlər kimi hərəkət edir və regional sabitliyə böyük töhfə verirlər. Buna görə də çoxqütblü dünya artıq reallıqdır. Düşünürəm ki, bu meyillər getdikcə daha da möhkəmlənəcək. Bu, müsbət haldır, çünki bu, dünyada sabitliyə zəmanətdir”.

Yaxın Şərqdə müşahidə olunan gərginliyi nəzərə almaqla bu il neftin qiymətində hansı dinamikanı gözləmək olar? - sualına cavabında isə Azərbaycan Prezidenti vurğulayıb ki, qiymətlərin bugünkü səviyyəsi həm istehsalçıları, həm də istehlakçıları qane edir. Azərbaycana gəldikdə, bu il dövlət büdcəsində neftin bir barelinin qiyməti 55 dollar nəzərdə tutulub. Lakin indi qiymət xeyli yüksəkdir. Buna görə də əgər hər hansı forsmajor vəziyyət yaranmasa, qiymət 55-65 dollar diapazonunda qalacaq. Üstəlik, “OPEC+” formatı çox səmərəlidir və Azərbaycan bu formatın işində fəal iştirak edir. Azərbaycan üzərinə götürdüyü öhdəliklərlə əlaqədar hasilatı azaldır və mahiyyət etibarilə bu gün OPEC-ə daxil olmayan ölkələr də özlərini OPEC üzvləri kimi aparırlar. Buna görə də “OPEC+” çoxtərəfli əməkdaşlığın olduqca uğurlu formatıdır.

Göründüyü kimi, cənab İlham Əliyev öz səmərəli təklifləri, irəli sürdüyü təşəbbüslərlə dünya enerji bazarında sabitləşməyə və proqnozlaşdırmaya mühüm töhfə verir. Azərbaycan Prezidenti dünyada çox az təsadüf edilən liderlərdəndir ki, irəli sürdüyü proqram xarakterli təşəbbüslər tezliklə reallığa, böyük layihələrə çevrilir.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Bakıda basketbol üzrə NBA Azərbaycan Yeniyetmələr Liqasının təqdimatı keçirilib

Yanvarın 29-da Amerika Milli Basketbol Assosiasiyasının (NBA) və Azərbaycan Basketbol Federasiyasının (ABF) təşkilatçılığı ilə Azərbaycanda 12-14 yaşlı məktəbli oğlanlar və qızların mübarizə aparacağı NBA Azərbaycan Yeniyetmələr Liqasının təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə əfsanəvi basketbolçu Kobe Brayantın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən Gənclər və İdman naziri Azad Rəhimov vurğulayıb: “Dünyada böyük populyarlıq qazanan, milyonlarla insanın azarkeşi olduğu NBA Liqası Azərbaycan Basketbol Federasiyası ilə əməkdaşlıq müqaviləsi imzalayıb. Bu müqavilə Azərbaycan idmanı üçün önəmli hadisələrdən biridir. Artıq bu yarış Azərbaycandadır. Bu, bizi çox sevindirir. Bu ad altında bizim də oğlan və qızlarımız çıxış edəcəklər. Ölkəmizdə dövlətimizin idmana diqqət və qayğısı nəticəsində Azərbaycan idmanı gündən-günə inkişaf edir. Bir çox idman növlərində uğurlar əldə etmişik. Təkcə Olimpiya növlərində deyil, ötən il ərzində idmançılarımız qeyri-Olimpiya növlərində də bir çox nailiyyətlər əldə edib. Bu gün Azərbaycanda idmanın mövcud maddi-texniki bazası bizə imkan verir ki, ölkəmizdə basketbolu da inkişaf etdirək. Bu mənada, ölkədə bütün idman komplekslərinin qapıları basketbola açıq olacaq. Azərbaycan Basketbol Federasiyasına uğurlar arzulayıram”.

Təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, bu addım gələcəkdə Azərbaycan məktəblərinin hər birində basketbol komandalarının yaranmasına səbəb olacaq. Nazir müavini deyib ki, hazırda şagirdlər arasında basketbola maraq əsasən paytaxt məktəblərindədir. Amma yeniyetmələr liqasının yaradılması sayəsində yaxın bir il ərzində regionlarda da bu idman növünün kütləviləşməsinin artacağını qeyd edən F.Qurbanov bir daha bu işdə əməyi keçən hər bir şəxsə öz təşəkkürünü bildirib.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə isə futbol, atletika, tennis və basketbol kimi dünyaca məşhur idman növlərinin Azərbaycanda da inkişafının vacibliyini söyləyib: “Hazırda ölkəmizdə basketbolun inkişafına fürsət yaranıb. Hər birimiz öz bacardığımız qədər bu işə dəstək verməliyik ki, Azərbaycanda ən azı 30 yaxşı basketbolçu yetişsin. Milli Olimpiya Komitəsi də bu layihəni həyata keçirmək üçün dəstək olacaq. İnanıram ki, ən qısa zamanda bu layihənin müsbət nəticələrinin şahidi olacağıq”.

Tədbirin fəxri qonağı - NBA-nın Avropa, Afrika və Yaxın Şərq ölkələri üzrə vitse-prezidenti Xesus Bueno Paskual Azərbaycanda basketbolun inkişafı üçün lazımi maddi-texniki bazanın olduğunu deyib. Qonaq səfərdə məqsədin basketbolu inkişaf etdirməkdən ibarət olduğunu bildirib: “Bu liqa NBA liqasının təqlidini nəzərdə tutur. Əsas məqsəd basketbol oyunlarına aşılanan münasibətdir. İstərdik ki, uşaqlar bir-biri ilə sağlam rəqabət aparsınlar. Onların vaxtında istirahət etmələrinə, yarışmalarına və sağlam həyat keçirmələrinə çalışacağıq. Artıq Azərbaycanda layihənin təməlini qoymuşuq. Gələcəkdə daha yüksək səviyyədə layihələr həyata keçirməyi planlaşdırırıq. Bu il oğlanlar və qızlar qarışıq komandalarda oynayacaqlar. Növbəti ildən isə ola bilsin, qızlar və oğlanlar ayrı-ayrı komandalarda çıxış etsinlər. Bu, təbii ki, Azərbaycan Basketbol Federasiyasının qərarından asılı olacaq”.

Azərbaycan Basketbol Federasiyasının prezidenti Nadir Nəsibov isə bildirib ki, MBA Azərbaycan Yeniyetmələr Liqasına seçim Azərbaycan birinciliklərinə qatılan məktəblərdən başlayacaq. Orada ən güclülər müəyyənləşəcək və yarışda iştirak hüququ qazanacaqlar. Federasiya prezidenti vurğulayıb: “Üç il əvvəl Gürcüstanda bu liqa yarananda cəmi 37 komanda var idi. Bu gün isə say 300-ə çatır. Azərbaycanda da belə olacağına ümid edirik. Proqramın fəlsəfəsinə əsasən, ilk ildə oğlan və qız komandaları ayrı da, hər ikisi eyni kollektivdə də ola bilər. Maliyyə məsələlərində Gənclər və İdman Nazirliyi ilə Milli Olimpiya Komitəsi hər zaman dəstək olurlar. Yarış təşkilatçıları da bu dəfə bəzi kömək edəcəklərinə söz veriblər. Layihənin qalibi Avropa və dünya çempionatlarında Azərbaycanı təmsil edə bilər. Bu layihə ilkin olaraq 4 il davam edəcək”.

Qeyd edək ki, belə bir qlobal layihənin əsas məqsədi yeniyetmələrin basketbola cəlb edilməsinin daha peşəkar səviyyəyə çatdırılmasıdır. Layihə çərçivəsində 75 ölkədə 51,5 milyondan çox yeniyetmə liqa oyunları, məktəbdaxili planlaşdırma, seminarlar, bacarıq müsabiqələri və digər təbliğat xarakterli tədbirlər həyata keçirilir. Liqa ölkə üzrə məktəb şagirdlərinin bu liqada iştirak edən oğlan və qızlardan təşkil edilmiş komandalar, NBA-da çıxış edən 30 komandanı təmsil edərək, NBA klublarının adlarını daşıyacaq və həmin klubların formasında çıxış edəcəklər. Onlar 2 konfrans və 6 divizionda mübarizə aparacaqlar.

# 9 fevral Milli Məclisə seçkilər günüdür

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası olub



Yanvarın 29-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2020-ci il yanvarın 19-da keçirilmiş iclasının protokolu təsdiq olunub.

Sonra 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "exit-poll" keçirilməsi niyyəti ilə "Rəy Monitorinq Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti və "İnsan Hüquqları XXI Əsr - Azərbaycan" Fondu (Fransa Respublikasının "Opinion Way" Sosioloji Tədqiqatlar İnstitutu ilə birlikdə) tərəfindən MSK-ya ünvanlanan müraciətlərə baxılıb. Komissiya üzvlərinin geniş müzakirəsindən sonra sözügedən qurumların Milli Məclisə seçkilərdə "exit-poll" keçirmək üçün qeydə alınmalarına qərar verilib.

Daha sonra qarşıdan gələn seçkilərlə əlaqədar Azərbaycan Ümid Partiyası tərəfindən təqdim olunan şəxslər səlahiyyətli nümayəndələr kimi qeydə alınıb.

Komissiyanın iclasında Milli Məclisə 2020-ci il fevralın 9-da keçiriləcək seçkilərdə təşviqat qaydalarının pozulması iddiası ilə daxil olan müraciətə də baxılıb və aparılan müzakirələrdən sonra qanunvericiliyin tələblərinə uyğun, əsaslandırılmış qərar qəbul edilib.

Beynəlxalq müşahidə missiyaları, xarici qurumlar və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda, həmçinin 9 fevral Milli Məclisə seçkilərlə bağlı cari məsələlərə baxılıb.

## Təşviqat kampaniyası bərabərlik şəraitində keçir

*Əvvəli 1-ci səh.*



Biz 61 saylı DSK-da olarkən məntəqə seçki komissiyalarının üzvləri üçün treninq keçirilirdi. Treninq başa çatdıqdan sonra DSK-nın sədri Şaiq Məmmədov dedi ki, məntəqə seçki komissiyalarının sədrləri və üzvləri bu treninqdə iştirak edirdilər. Onlara seçki qanunvericiliyi ilə bağlı məsələlər ətraflı izah olundu. Ümumiyyətlə, maarifləndirici treninqlər seçkilərin şəffaf və qanunamüvafiq keçirilməsi baxımından çox önəmlidir.

Yolumuzu 7 saylı seçki məntəqəsinə də saldıq. Bu məntəqə Neftçala şəhəri ərazisindəki Suvarma Sistemləri İdarəsinin binasında fəaliyyət göstərir. Hər yerdə səliqə-sahman hökm sürürdü. Məntəqə seçki kabinələri, təşviqat və məlumat lövhələri, daşınan və daşınmaz qutularla təmin olunub. Müşahidəçilər və həkimlər üçün xüsusi yerlər ayrılmış, analar üçün ayrıca otaq təşkil edilmişdir.

Məntəqə seçki komissiyasının sədri Yalçın Səfərov vurğuladı ki, seçicilərin istədikləri namizədə azad şəkildə səs vermələri üçün bütün tədbirlər görülmüşdür. Məntəqə alternativ işıq mənbəyi, telefon və digər ləvazimatlarla təmin edilmişdir. 22 nəfər səhhətində problem olduğu üçün məntəqəyə gələ bilməyəcəkləri barədə məlumat vermişdir. Seçki günü onların səsvermədə iştiraklarını təmin etmək üçün tədbir görülmüşdür.

Məntəqədə seçici Təbriz Əhmədovla söhbət etdik. O dedi ki, budəfəki parlament seçkilərində namizədlər arasında gənclərin üstünlük təşkil etməsi yeni parlamentin xalqın istəyinə tam cavab verəcəyini göstərir. Məntəqədəki vəziyyət, ab-hava da bundan xəbər verir. Biz seçicilər 9 fevral günü gəlib sərbəst şəkildə istədiyimiz namizədə səs verəcəyik.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Polis orqanları seçkilər zamanı asayişin təmin edilməsində mühüm rol oynayır





Yanvarın 29-da Şirvan Şəhər Polis Şöbəsində 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə həsr olunmuş regional seminar-müşavirə keçirilib.

Mərkəzi Seçki Komissiyası (MSK) və Daxili İşlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə MSK-nın üzvləri İlham Məmmədov, Bəxşeyiş Əsgərov, Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin nümayəndəsi Hamlet Hümbətəliyev, Şirvan Şəhər Polis Şöbəsinin rəisi Hikmət Quliyev, 28 seçki dairəsi dairə seçki komissiyalarının sədrləri və 17 şəhər və rayon polis orqanlarının nümayəndələri iştirak edib.

AZƏRTAC xəbər verir ki, Şirvan Şəhər Polis Şöbəsinin rəisi Hikmət Quliyev çıxış edərək seçki subyektləri, onların hüquq və vəzifələri, qanunsuz müdaxilənin yol verilməməsi ilə bağlı fikirlərini bölüşüb, Milli Məclisə seçkilərin təhlükəsiz şəraitdə keçirilməsi ilə bağlı şəhər polis şöbəsində görülən işlərdən danışıb.

Mərkəzi Seçki Komissiyasının üzvü İlham Məmmədov "Seçki qanunvericiliyi, seçki komissiyalarının sistemi, seçki prosesi, onun mərhələləri və müddətləri. Seçki komissiyaları və polis orqanlarının birgə fəaliyyətinin əsasları" mövzusunda çıxış edərək bildirib ki, tədbirin keçirilməsində əsas məqsəd seçki qanunvericiliyinin və səsvermə günü polisin üzərinə düşən vəzifələrin və ictimai qaydaların qorunmasının izah edilməsidir.

Qeyd olunub ki, polis orqanları seçki prosesində bilavasitə iştirak etməsələr də, onlar yerlərdə seçki mühitinin yaranmasında, seçkilər zamanı asayişin təmin edilməsində mühüm rol oynayırlar.

Diqqətə çatdırılıb ki, Azərbaycan seçkilərin keçirilməsi sahəsində kifayət qədər böyük təcrübə qazanıb. Bu təcrübə imkan verir ki, qarşıdan gələn Milli Məclisə seçkilər də yüksək səviyyədə keçirilsin. Azərbaycan hakimiyyətinin siyasi iradəsi və bu sahədə görülən zəruri tədbirlər ölkəmizdə Milli Məclisə seçkilərin azad, demokratik, şəffaf, milli qanunvericiliyə və beynəlxalq standartlara uyğun şəkildə keçirilməsinə şərait yaradır.

Daxili İşlər Nazirliyi Baş İctimai Təhlükəsizlik İdarəsinin nümayəndəsi Hamlet Hümbətəliyev "Seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri. Seçkidən sonrakı dövrdə seçki bülletenlərinin və digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsi" mövzusunda çıxış edərək bildirib ki, fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərin qanunvericiliyin tələblərinə uyğun, təhlükəsiz və demokratik şəraitdə keçirilməsində polis əməkdaşlarının üzərinə mühüm vəzifələr düşür. Seçkilərlə əlaqədar asayişin mühafizəsi və ictimai təhlükəsizliyin təmin olunması ilə bağlı Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən xüsusi tədbirlər planlı təsdiq edilib və icrası nəzarətə götürülüb.

Diqqətə çatdırılıb ki, Daxili İşlər Nazirliyinin bütün orqan və nizami polis hissələri seçki ərəfəsi və seçki günü gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək.

MSK üzvü Bəxşeyiş Əsgərov "Seçki subyektləri, onların hüquq və vəzifələri. Seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi" mövzusunda təqdimatla çıxış edib.

Seminar-müşavirədə mövzu ilə bağlı geniş müzakirələr aparılıb.

## Dairə seçki komissiyalarında seçkilərə hazırlıq işləri davam edir





Fevralın 9-na təyin olunmuş Milli Məclisə seçkilərlə əlaqədar növbəti maarifləndirici treninq 16 saylı Yasamal II seçki dairəsi dairə seçki komissiyasında təşkil olunub.







Plana uyğun olaraq, treninqdə məntəqə seçki komissiyasının sədrləri və üzvləri iştirak ediblər. Bundan başqa, yaradılan müvəqqəti məntəqələrin, eləcə də seçki dairəsinin ərazisində məskunlaşan məcburi köçkünlərin daxil olduğu məntəqə seçki komissiyalarının sədrləri və üzvləri də treninqlərə cəlb ediliblər.

Mərkəzi Seçki Komissiyasının təlimatı və tövsiyəsi əsasında təşkil edilən treninqdə dairə seçki komissiyasının sədri Sədaqət Seyidzadə bildirib ki, 16 saylı Yasamal II seçki dairəsi üzrə 29 açıq, 1 qapalı seçki məntəqəsi var. Bu məntəqələrdə 35 min 547 seçici qeydə alınıb. Onlardan 39-u ilk dəfə səs verəcək. Həmçinin yaşı 100-ü keçmiş iki seçici qeydə alınıb. Mərkəzi Seçki Komissiyasının müvafiq təlimatlarına uyğun olaraq, seçkilərə hazırlıq tədbirləri həyata keçirilir, məntəqələrdə bütün lazımi şərait yaradılıb, 10 məntəqədə vebkamera quraşdırılıb.

Qeyd olunub ki, namizədlərin təşviqatı mərhələsində seçicilərlə açıq və qapalı yerlərdə görüş yerləri müəyyənləşdirilib. Həmçinin hər seçki məntəqəsinin önündə namizədlərin təşviqat materiallarının asılması üçün lövhələr quraşdırılıb.

Məlumat verilib ki, dairə və məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılması, onların seçkilər sahəsində bilik, bacarıq və vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə Mərkəzi Seçki Komissiyasının treninq qrupu tərəfindən yerlərdə keçiriləcək treninqlərin cədvəli, eləcə də seçki günü əsas seçki hərəkətləri ilə bağlı slaydlar hazırlanıb. Aşağı seçki komissiyaları üçün dördgünlük treninqdə trenerlər iştirakçıları səsvermə günü görəcəkləri işlər, seçki məntəqələrinin açılışına hazırlıqlar, səsvermə saatlarında həyata keçiriləcək tədbirlərlə bağlı təqdimatlar və slaydlar vasitəsilə izahlı şəkildə məlumatlandırırlar.

❖❖❖

21 saylı Nəsimi birinci seçki dairəsi dairə seçki komissiyasında Mərkəzi Seçki Komissiyasının Milli Məclisə seçkilərlə bağlı fəaliyyət planına müvafiq olaraq məntəqə seçki komissiyasının sədrləri və üzvləri üçün maarifləndirici treninqlər aparılır.

Yanvarın 29-da keçirilən treninqdə dairə seçki komissiyasının sədri Çingiz Dadaşov çıxış edərək maarifləndirici treninqlərin Milli Məclisə seçkilərin şəffaf və qanunauyğun təşkili üçün mühüm əhəmiyyətə malik olduğunu, iştirakçıları seçkilərə hazırlığın gedişi ilə bağlı hərtərəfli şəkildə məlumatlandırmağın mühüm əhəmiyyət daşıdığını qeyd edib. Sədr məlumat verib ki, dairə üzrə 29 seçki məntəqəsi fəaliyyət göstərir və məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılması, onların seçkilər sahəsində bilik, bacarıq və vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə MSK-nın Treninq Qrupu tərəfindən yerlərdə keçirilən treninqlərin cədvəli, eləcə də səsvermə günü əsas seçki hərəkətləri ilə bağlı slaydlar hazırlanıb. Trenerlər iştirakçıları səsvermə günü onların görəcəkləri işlərlə, seçki məntəqələrinin açılışına hazırlıqlarla, səsvermə saatlarında həyata keçiriləcək tədbirlərlə əlaqədar təqdimatlar və slaydlarla izahlı şəkildə məlumatlandırırlar.

Sədrin verdiyi məlumata görə, fevralın 9-da keçiriləcək seçkilərdə məntəqələrdə 34 min 395 seçici səs verəcək. Onlardan 50 nəfəri ilk dəfə səsvermədə iştirak edəcək. Seçicilərin 1005 nəfəri yaşı 80-dən 100-dək olanlardır. İndiyədək 20 minədək seçiciyə bildiriş göndərilib və bu, dairə üzrə ümumi seçicilərin 57-58 faizini təşkil edir. Seçki gününə 7 gün qalana qədər bütün bildirişlər ünvana çatdırılmalıdır.

Milli Məclisə seçkilərə hazırlıq işlərinin yüksək səviyyədə aparıldığını diqqətə çatdıran sədr onu da qeyd edib ki, dairə üzrə 10 namizəd deputat mandatı əldə etmək uğrunda mübarizə aparacaq. Seçkiləri izləmək üçün dairədə indiyədək 438 müşahidəçi qeydiyyatdan keçib. Seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün hər cür şərait yaradılıb, məntəqələr lazımi texniki avadanlıqla və məlumat kitabçaları ilə tam təchiz edilib. Şəffaflığın təmin olunması məqsədilə bəzi məntəqələrdə vebkameralar quraşdırılıb.

Treninqlər zamanı iştirakçılara səsvermə günü məşvərətçi səs hüquqlu üzvlərin, müşahidəçilərin və kütləvi informasiya vasitələri nümayəndələrinin hüquq və vəzifələri, onlarla iş qaydası, seçki günü məntəqə seçki komissiyalarının rolu və fəaliyyəti barədə məlumat verilib. Həmçinin müxtəlif mövzular ətrafında müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb, hər bir məntəqə seçki komissiyasının üzvünə "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələri haqqında protokol nümunəsi və digər sənəd nümunələri təqdim edilib.

❖❖❖

Yanvarın 29-da Nərimanov birinci seçki dairəsi dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədrləri və üzvləri üçün maarifləndirici treninqlər keçirilib.

Dairə seçki komissiyasının sədri Azad Nəbiyev Milli Məclisə seçkilərlə bağlı hazırlıq işlərindən danışıb. Bildirilib ki, 44 min 588 seçicisi olan dairə seçki komissiyasının ərazisində 35 daimi seçki məntəqəsi fəaliyyət göstərir. Məntəqələrin bəzilərində veb-kameralar quraşdırılıb. Komissiya üzvlərinin normal fəaliyyət göstərməsi üçün məntəqələrdə hər cür şərait yaradılıb.

Treninqlərin üçüncü günündə dairə seçki komissiyasının üzvü Şamil Məmmədov səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki günü prosesləri və müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, bülletenlərin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması, səsvermə proseslərinə dair praktiki tapşırıqlar barədə məlumat verib.

Eləcə də seçki prosesində KİV-in rolu, yerli və xarici müşahidəçilərin hüquq və vəzifələri, Milli Məclisə seçkilərin keçirilməsi, nəticələrin rəsmiləşdirilməsi işində məntəqə seçki komissiyalarının vəzifələri və fəaliyyətlərinin təşkili ilə bağlı məsələlərə toxunulub.

Maarifləndirici treninqlərdə həmçinin seçkilərə hazırlıq prosesində dairə və məntəqə seçki komissiyalarının üzərinə düşən vəzifələrdən danışılıb.

Qeyd edək ki, treninqlər 20 saylı Nərimanov ikinci seçki dairəsi dairə seçki komissiyasında da keçirilir.

❖❖❖

Yanvarın 29-da 8 saylı Binəqədi birinci seçki dairəsi dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədrləri və üzvləri üçün maarifləndirici treninqlər keçirilib.

Dairə seçki komissiyasının sədri Natiq Əliyev Milli Məclisə seçkilərlə bağlı hazırlıq işlərindən danışıb. Bildirib ki, seçki dairəsi üzrə hazırda 39 daimi seçki məntəqəsi fəaliyyət göstərir. Seçki dairəsi üzrə seçici sayı 48 min 107 nəfərdir. Seçicilərin 25 faizi gənclər, 964 nəfəri isə 80-100 yaşlı insanlardır. 118 nəfər ilk dəfə səs verəcək gənclərdir. Məntəqələrin bəzilərində veb-kameralar quraşdırılıb. Komissiya üzvlərinin normal fəaliyyət göstərmələri üçün məntəqələrdə hər cür şərait yaradılıb.

Treninqlərin üçüncü günündə dairə seçki komissiyasının katibi Faiq Əliyev və üzvü Nizami Novruzov səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki günü prosesləri və müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, bülletenlərin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması, səsvermə proseslərinə dair praktiki tapşırıqlar barədə məlumat veriblər.

Eləcə də seçki prosesində KİV-in rolu, yerli və xarici müşahidəçilərin hüquq və vəzifələri, Milli Məclisə seçkilərin keçirilməsi, nəticələrin rəsmiləşdirilməsi işində məntəqə seçki komissiyalarının vəzifələri və fəaliyyətlərinin təşkili ilə bağlı məsələlərə toxunulub.

❖❖❖

Mərkəzi Seçki Komissiyasının Milli Məclisə seçkilərlə bağlı fəaliyyət planına müvafiq olaraq 31 saylı Suraxanı ikinci seçki dairəsi dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədrləri və üzvləri üçün maarifləndirici treninqlər keçirilib.

Dairə seçki komissiyasının sədri İlham Bayramov dairə üzrə 32 seçki məntəqəsinin fəaliyyət göstərdiyini deyib. O bildirib ki, dairə üzrə seçicilərin sayı 39 min 373 nəfərdir.

Qeyd edilib ki, maarifləndirici treninqlər Milli Məclisə seçkilərin şəffaf və qanunauyğun təşkili üçün mühüm əhəmiyyətə malikdir. Treninq iştirakçıları seçkilərə hazırlığın gedişi ilə bağlı hərtərəfli şəkildə məlumatlandırılır.

Dairədə Milli Məclisə seçkilərə hazırlıq işlərinin yüksək səviyyədə aparıldığını diqqətə çatdıran sədr bildirib ki, treninqlərdə seçkiöncəsi, seçki günü və seçkidən sonra görüləcək işlər haqqında məntəqə seçki komissiyalarının üzvləri mütəmadi maarifləndirilir. Məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şərait yaradılıb.

Bildirilib ki, dairə və məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılması, onların seçkilər sahəsində bilik, bacarıq və vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə MSK-nın Treninq Qrupu tərəfindən yerlərdə keçirilən treninqlərin cədvəli, eləcə də seçki günü əsas seçki hərəkətləri ilə bağlı slaydlar hazırlanıb. Treninqlərdə trenerlər iştirakçıları səsvermə günü onların görəcəkləri işlərlə, seçki məntəqələrinin açılışına hazırlıqlarla, səsvermə saatlarında reallaşdırılacaq tədbirlərlə bağlı təqdimatlarla və slaydlarla izahlı şəkildə məlumatlandırılır.

Dairə seçki komissiyasının üzvü Ramiz Həsənli tərəfindən aparılan treninqlərdə iştirakçılara səsvermə günü məşvərətçi səs hüquqlu üzvlərin, müşahidəçilərin və KİV nümayəndələrinin hüquq və vəzifələri, onlarla iş qaydası, seçki günü məntəqə seçki komissiyalarının rolu və fəaliyyəti barədə məlumat verilib.

Treninqlər zamanı müxtəlif mövzular ətrafında müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb, hər bir məntəqə seçki komissiyasının üzvünə "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər sənəd nümunələri təqdim edilib.

Məlumat verilib ki, məntəqələr seçki kabinələri, təşviqat lövhələri, məlumat lövhələri, generatorlar, elektrik fənərləri, dövlət bayraqları, dövlət gerbləri, daşınmaz və daşınan seçki qutuları, seçici siyahısı lövhələri, qeydiyyat dəftərləri, təlimat, Seçki Məcəlləsi ilə təmin olunub.

❖❖❖

Bu il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərə hazırlıq çərçivəsində Şəki rayonunda fəaliyyət göstərən 113, 114 və 115 saylı seçki dairələrində aşağı seçki komissiyalarının üzvləri üçün maarifləndirici treninqlər davam edir. Yanvarın 27-də başlanan treninqlərə hər üç seçki dairəsi üzrə ümumilikdə 690 nəfər komissiya üzvü cəlb edilib.

113 saylı Şəki şəhər seçki dairəsində keçirilən treninqlərdə dairənin tərkibinə daxil olan 29 seçki məntəqəsinin 174 nəfər komissiya üzvü iştirak edib. Məşğələləri Mərkəzi Seçki Komissiyasının (MSK) təşkil etdiyi təlim kursunda iştirak etmiş Tehran Əzizov və Elnur Mustafayev aparıblar. Təlim prosesində iştirakçılara MSK tərəfindən tərtib edilmiş xüsusi proqram və slaydların köməyi ilə məntəqə seçki komissiyası üzvlərinin rol və vəzifələri, seçki günü prosesləri və müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması məsələləri barədə metodiki məlumatlar verilib.

Dairə seçki komissiyasının sədri Rəhman Qədirzadənin sözlərinə görə, dairə üzrə 8 namizəd qeydə alınıb. Onlardan ikisi müxtəlif siyasi partiyaları təmsil edir. Altı nəfərin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülüb. Dairə üzrə indiyədək 321 nəfər yerli müşahidəçi qeydiyyatdan keçib. Dəqiqləşdirilmiş son seçici siyahılarına görə, seçicilərin ümumi sayı 37 min 223 nəfərdir.

114 saylı Şəki kənd birinci seçki dairəsi üzrə treninqlərə dairənin tərkibində olan 43 seçki məntəqəsindən 258 nəfər komissiya üzvü cəlb edilib. Dairə seçki komissiyasının üzvləri Azər Əhmədov və Adil Balacayevin tədris etdiyi məşğələlər zamanı vurğulanıb ki, seçkilərin demokratik və şəffaf keçirilməsi məntəqə seçki komissiyaları üzvlərinin fəaliyyətindən çox asılıdır. Ona görə də komissiya üzvləri öz peşəkarlıq səviyyəsini, bilik və bacarıqlarını daha da artırmalı, seçki günü üzərlərinə düşən vəzifələri dəqiq bilməli və layiqincə yerinə yetirməlidirlər. Dairə üzrə 10 nəfərin namizədliyi qeydə alınıb. Onlardan bir nəfər siyasi partiyanı təmsil edir. Doqquz nəfərin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülüb. İndiyədək 467 nəfər yerli müşahidəçi qeydiyyatdan keçib.

Aşağı seçki komissiyaları üzvləri üçün maarifləndirici treninqlər 115 saylı Şəki kənd ikinci seçki dairəsində də mütəşəkkil qaydada davam edir. Dairə seçki komissiyasının sədri Rasim Əzizovun bildirdiyinə görə, treninqlərə dairənin tərkibinə daxil olan 43 seçki məntəqəsinin 258 nəfər üzvü cəlb olunub. Məşğələləri seçki dairəsinin baş məsləhətçisi Leyla İbrahimova və aparıcı məsləhətçi Gülnarə Cəlilova aparırlar. Treninqlər yanvarın 30-da başa çatacaq.

Bu dairə üzrə namizədliyi qeydə alınan 8 nəfərdən biri siyasi partiyanı təmsil edir. Yeddi nəfərin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülüb.

Maarifləndirici treninqlər bölgədə fəaliyyət göstərən digər seçki dairələrində də başa çatmaq üzrədir.

***AZƏRTAC***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

QƏRAR № 16/101

## Mərkəzi Seçki Komissiyasının 19 yanvar 2020-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 19 yanvar 2020-ci il tarixli iclasının protokolu təsdiq edilsin.

***Sədr*** ***Məzahir Pənahov***
***Katib*** ***Arifə Muxtarova***
***Katib*** ***Mikayıl Rəhimov***

*29.01.2020-ci il*

QƏRAR № 16/103

## “İnsan Hüquqları XXI Əsr-Azərbaycan” Fondunun 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səsvermə günü Fransa Respublikasının “Opinion Way” Sosioloji Tədqiqatlar İnstitutu ilə birgə “exit-poll” keçirəcək qurum kimi qeydə alınması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

“İnsan Hüquqları XXI Əsr-Azərbaycan” Fondu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə səsvermə günü Fransa Respublikasının “Opinion Way” Sosioloji Tədqiqatlar İnstitutu ilə birgə “exit-poll” keçirmək niyyətində olduqlarını bildirmiş və bu məqsədlə qeydə alınmasını xahiş etmişdir.

Müraciət akkreditasiya üçün zəruri olan sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş, qanunvericiliklə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparılmış, həmin təşkilatın qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 25.2.23-cü maddəsinə müvafiq olaraq Mərkəzi Seçki Komissiyası tərəfindən qəbul edilmiş “Azərbaycan Respublikasında seçkilərdə “exit-poll” keçirən təşkilatların akkreditasiyası Qaydaları” ilə “exit-poll” keçirmək niyyətində olan qurumların qeydiyyatına dair tələblər müəyyən olunmuşdur. Həmin Qaydaların 2.3-cü bəndinə əsasən “exit-poll” keçirmək niyyətində olan təşkilatların yazılı müraciətlərinə 10 gün müddətində baxılmalı, müraciətlə birgə təqdim olunmuş sənədlər araşdırılmalı və müvafiq təşkilatın akkreditasiyadan keçirilib-keçirilməməsi barədə əsaslandırılmış qərar qəbul edilməlidir.

Təqdim edilmiş sənədlər Qaydaların tələblərinə cavab verdiyindən “İnsan Hüquqları XXI Əsr-Azərbaycan” Fondunun akkreditasiyadan keçmək barədə müraciəti təmin olunmalıdır.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.23-cü, 28.2-ci, 28.4-cü maddələrinə və adı çəkilən Qaydaların 2.3-cü bəndinə əsasən **qərara alır:**

1. “İnsan Hüquqları XXI Əsr-Azərbaycan” Fondu 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə səsvermə günü Fransa Respublikasının “Opinion Way” Sosioloji Tədqiqatlar İnstitutu ilə birlikdə “exit-poll” keçirəcək qurum kimi qeydə alınsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr*** ***Məzahir Pənahov***
***Katib*** ***Arifə Muxtarova***
***Katib*** ***Mikayıl Rəhimov***

*29.01.2020-ci il*

QƏRAR № 16/104

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə Azərbaycan Ümid Partiyası Ali Məclisinin sessiyasının qərarı ilə səlahiyyətli nümayəndələr təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə aşağıdakı şəxslər Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Səidə Bahadur qızı Hüseynova
Tahir Güllər oğlu Əsgərov
Davud Kamil oğlu Heydərov
Samid Əfrail oğlu Kəlbiyev
Ələkbər Qüdrət oğlu Sadıqov
Elvin Elşad oğlu Bayramlı
Rahim Saleh oğlu Ağayev
Tural Aslan oğlu Əliyev
Adıgözəl Əbülhəsən oğlu Haxverdiyev
Nicat Aslan oğlu Əliyev
Teymur Mahir oğlu Əliyev
Cabir Müseyib oğlu Əhmədov
Kərim Eldar oğlu Qasımov
Vəzir Ataxan oğlu Gülalıyev
Qüdrət Ələkbər oğlu Sadıqov
Əlvan Cankişi oğlu Kərimov
Ağabəy Valid oğlu Həmidov
Mehriban Kamil qızı Heydərova
Şahsuvar Əslan oğlu Seyranlı
Yaqut Mövlam qızı Baxışova
Şirin Bəydadaş oğlu Şixaliyev
Barat Həbulla oğlu Abdullayev
Niyazi Ataxan oğlu Gülalıyev
Cavid Vahid oğlu Əhədov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr*** ***Məzahir Pənahov***
***Katib*** ***Arifə Muxtarova***
***Katib*** ***Mikayıl Rəhimov***

*29.01.2020-ci il*

QƏRAR № 16/102

## “Rəy Monitorinq Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səsvermə günü “exit-poll” keçirəcək qurum kimi qeydə alınması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

“Rəy Monitorinq Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə səsvermə günü “exit-poll” keçirmək niyyətində olduğunu bildirmiş və bu məqsədlə qeydə alınmasını xahiş etmişdir.

Müraciət akkreditasiya üçün zəruri olan sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş, qanunvericiliklə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparılmış, həmin təşkilatın qeydə alınması üçün hüquqi əsasların olması müəyyən edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 25.2.23-cü maddəsinə müvafiq olaraq Mərkəzi Seçki Komissiyası tərəfindən qəbul edilmiş “Azərbaycan Respublikasında seçkilərdə “exit-poll” keçirən təşkilatların akkreditasiyası Qaydaları” ilə “exit-poll” keçirmək niyyətində olan qurumların qeydiyyatına dair tələblər müəyyən olunmuşdur. Həmin Qaydaların 2.3-cü bəndinə əsasən “exit-poll” keçirmək niyyətində olan təşkilatların yazılı müraciətlərinə 10 gün müddətində baxılmalı, müraciətlə birgə təqdim olunmuş sənədlər araşdırılmalı və müvafiq təşkilatın akkreditasiyadan keçirilib-keçirilməməsi barədə əsaslandırılmış qərar qəbul edilməlidir.

Təqdim edilmiş sənədlər Qaydaların tələblərinə cavab verdiyindən “Rəy Monitorinq Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin akkreditasiyadan keçmək barədə müraciəti təmin olunmalıdır.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.23-cü, 28.2-ci, 28.4-cü maddələrinə və adı çəkilən Qaydaların 2.3-cü bəndinə əsasən **qərara alır:**

1. “Rəy Monitorinq Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə səsvermə günü “exit-poll” keçirəcək qurum kimi qeydə alınsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr*** ***Məzahir Pənahov***
***Katib*** ***Arifə Muxtarova***
***Katib*** ***Mikayıl Rəhimov***

*29.01.2020-ci il*

QƏRAR № 16/105

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 27 yanvar 2020-ci il tarixli 37 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 109 saylı Balakən seçki dairəsi üzrə qeydə alınmış namizəd Dibirov Mustafa Dibir oğlu və digərləri 27 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək Xəzər Televiziyasında (Xəzər TV) həmin seçki dairəsi üzrə qeydə alınmış digər namizəd Məhəməliyev Nəsib Məhəmməd oğlunun xeyrinə seçkiqabağı qanunsuz təşviqat aparıldığını iddia etmiş, onun namizədliyinin ləğv olunması barədə qərar qəbul edilməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Ərizəçilər müraciətdə iddia etmişlər ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 109 saylı Balakən seçki dairəsi üzrə qeydə alınmış namizəd M.N.Məhəməliyev barədə Xəzər TV-nin 23 yanvar 2020-ci il tarixdə efirə getmiş “Səni axtarıram” verilişində aparıcı Xoşqədəm Hidayət qızı tərəfindən namizədin xeyriyyəçilik fəaliyyəti ilə məşqul olmasını əks etdirən fikir səsləndirilmiş, M.N.Məhəməliyevin xəstə olan bir şəxsin müalicəsi üçün 1500 manat pul verməsi elan edilmişdir.

Araşdırma prosesində ərizəçilərlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir.

Xəzər TV-nin 23 yanvar 2020-ci il tarixdə efirə getmiş “Səni axtarıram” verilişində 109 saylı Balakən seçki dairəsi üzrə qeydə alınmış namizəd M.N.Məhəməliyevin və ya onun maraqlarını təmsil edən hər hansı bir şəxsin iştirak etməsi ilə bağlı “Xəzər TV” MMC-dən sorğuya cavab olaraq təqdim olunmuş 29 yanvar 2020-ci il tarixli məktubda göstərilir ki, Xəzər TV-də yayımlanan “Səni axtarıram” verilişinin 23 yanvar 2020-ci il buraxılışında deputatlığa namizəd M.N.Məhəməliyev və ya onun maraqlarını təmsil edən hər hansı bir şəxs iştirak etməmişdir.

Qeydə alınmış namizəd M.N.Məhəməliyev tərəfindən verilmiş məlumatda göstərilir ki, 2019-cu ilin oktyabr ayında “Səni axtarıram” verilişində Yeganə Babayeva adlı şəxsin xəstə uşağının müalicəsinə kömək üçün verilmiş elan əsasında onun ailə üzvləri tərəfindən həmin şəxsə müvafiq maddi yardım göstərilmişdir. Həmin yardımın beş aydan sonra hazırkı təşviqat dövründə qeyd edilən verilişdə səsləndirilməsi seçicinin ələ alınması kimi qiymətləndirilə bilməz.

Araşdirma ilə qeydə alınmış namizəd M.N.Məhəməliyevin ailə üzvlərinin köməklik göstərdikləri Yeganə Babayevanın 109 saylı Balakən seçki dairəsinin seçicilər siyahısında olması müəyyən edilməmişdir.

Beləliklə, qeydə alınmış namizəd M.N.Məhəməliyev tərəfindən Seçki Məcəlləsinin 88.4.1-ci maddəsinin tələbinin pozulmasına yol verilməsi halı təsdiqini tapmamışdır.

Göstərilənlərə əsasən şikayətin təmin edilməsi üçün əsaslar müəyyən edilməmişdir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 109 saylı Balakən seçki dairəsi üzrə qeydə alınmış namizəd Dibirov Mustafa Dibir oğlu və digərlərinin 27 yanvar 2020-ci il tarixli 37 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr*** ***Məzahir Pənahov***
***Katib*** ***Arifə Muxtarova***
***Katib*** ***Mikayıl Rəhimov***

*29.01.2020-ci il*

# SOCAR-ın I vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə “Bakı Ali Neft Məktəbinin Fəxri professoru” diplomu təqdim olundu

Bakı Ali Neft Məktəbində (BANM) Azərbaycanın neft-qaz sənayesinin canlı əfsanəsi, bu sahənin inkişafına böyük töhfələr vermiş SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin 90 illik yubileyi geniş qeyd olunub.





Ali Məktəbin konqres zalında təntənəli yubiley tədbiri keçirilib. Tədbirdə SOCAR-ın və BANM-in rəhbərliyi, nüfuzlu elm xadimləri, ictimaiyyət nümayəndələri iştirak edib.

Tədbiri giriş sözü ilə açan Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov bildirib ki, müstəqil Azərbaycanın yeni neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsində Xoşbəxt Yusifzadənin əməyi, zəngin təcrübəsi bütün neftçilər üçün nümunədir.

Rektor onun böyük xidmətlərinə ən ali səviyyədə qiymət verildiyini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Xoşbəxt Yusifzadənin 90 illik yubileyinin dövlət səviyyəsində təntənəli qeyd olunduğunu və onun “Heydər Əliyev” ordeninə layiq görüldüyünü diqqətə çatdırıb.

“Ölkəmizdə zəngin neft-qaz yataqlarının kəşf edilməsi və işlənməsində, neft sənayesi və elminin inkişafında, Xəzər dənizindəki genişmiqyaslı axtarış-kəşfiyyat işlərinin uğurla həyata keçirilməsində Xoşbəxt Yusifzadənin böyük xidmətləri vardır. Xəzər dənizinin Azərbaycan sektorunda onun rəhbərliyi və bilavasitə iştirakı ilə 20-dən çox neft və qazkondensat yatağı - “Bahar”, “Günəşli”, “Azəri”, “Çıraq”, “Kəpəz” və digər yataqlar kəşf edilib. Bütün bunlarla yanaşı, Azərbaycan neft elminin qızıl fonduna daxil olan 200-dən artıq elmi əsərin, 18 monoqrafiya və 8 ixtiranın müəllifi kimi tanınan Xoşbəxt Yusifzadənin elmi yaradıcılığı neft və qaz sənayesinin aktual problemlərinin həllinə, neft-qaz geologiyasının inkişafına, yataqların işlənilməsinə və geofiziki axtarış üsullarının təkmilləşdirilməsinə dəyərli töhfə verib”.

Xoşbəxt Yusifzadənin bu gün də yorulmadan çalışdığını, elm və istehsalat sahəsində öz səmərəli fəaliyyətini uğurla davam etdirdiyini qeyd edən rektor Elmar Qasımov daha sonra Bakı Ali Neft Məktəbinin Elmi Şurasının qərarı ilə Xoşbəxt Yusifzadəyə “Bakı Ali Neft Məktəbinin Fəxri professoru” diplomunu



təqdim edib. X.Yusifzadə “Azərbaycanda neft-qaz sənayesinin inkişafına, elm və təhsilin tərəqqisinə verdiyi töhfələrə görə” Fəxri professor diplomuna layiq görülüb.

SOCAR-ın Kadr, Rejim və İnformasiya texnologiyaları üzrə vitse-prezidenti Xalik Məmmədov tədbirdə çıxışı zamanı Xoşbəxt Yusifzadənin tarixi əhəmiyyət kəsb edən nailiyyətlərindən bəhs edib, iş yoldaşı kimi öz təəssüratlarını bölüşüb: “X.Yusifzadə ilə birlikdə çalışdığımız illərdə mən xarici mütəxəssislərin onunla qeyd-şərtsiz hesablaşdıqlarının, onun rəyini daim böyük hörmətlə nəzərə aldıqlarının şahidi olmuşam. Ötən 25 ildə Xəzər dənizinin Azərbaycan sektorunda tərəfdaş şirkətlərlə aparılmış genişmiqyaslı kəşfiyyat-axtarış işlərinin müvəffəqiyyətlə nəticələnməsində onun böyük əməyi var. X.Yusifzadə bu gün də şanlı neftçilər ordusunun ön sıralarındadır. O. Azərbaycan neft-qaz sənayesinin inkişafı naminə yorulmadan çalışır, SOCAR-ın rəhbərlərindən biri kimi ölkə iqtisadiyyatının çiçəklənməsinə mühüm töhfələr verməkdə davam edir. İnanırıq ki, tükənməz enerjisi və əməksevərliyi sayəsində Xoşbəxt Yusifzadə hələ uzun illər xalqımızın daha işıqlı gələcəyi naminə qurucu-yaradıcı fəaliyyətini davam etdirəcək, şirkətimizin inkişafında yaxından iştirak edəcəkdir”.

Tədbirdə Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, AMEA-nın birinci vitse-prezidenti, akademik İbrahim Quliyev, Təhsil nazirinin müavini İdris İsayev, Xarici İşlər nazirinin müavini Xələf Xələfov, Milli Məclisin Sədr müavini Valeh Ələsgərov, Energetika nazirinin müavini Elnur Soltanov, BP şirkətinin Geoloji-kəşfiyyat işləri üzrə vitse-prezidenti Qreq Rayli, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Azərbaycan Dövlət Texniki Universitetin rektoru Vilayət Vəliyev də təbrik nitqi ilə çıxış ediblər. Onlar akademik X.Yusifzadənin təkcə Azərbaycanda deyil, xaricdə də neft sahəsinin səriştəli mütəxəssisi kimi tanındığını, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də Xoşbəxt Yusifzadəni nəinki Azərbaycanda və keçmiş Sovet İttifaqında, eləcə də dünya miqyasında tanınmış mütəxəssis kimi qiymətləndirdiklərini vurğulayıblar.

Bakı Ali Neft Məktəbinin proseslərin avtomatlaşdırılması ixtisasının 4-cü kurs tələbəsi Nərgiz Hüseynova Xoşbəxt Yusifzadəyə həsr olunmuş şeir söyləyib.

Çıxışlardan sonra akademik Xoşbəxt Yusifzadənin fəaliyyəti haqqında film nümayiş olunub.

Sonda səbəbkar çıxış edərək tədbirin təşkilatçılarına, iştirakçılara və çıxışçılara təşəkkürünü bildirib. Həyat və fəaliyyətinin maraqlı anlarından danışan yubilyar Ulu Öndər Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin ona göstərdiyi böyük dəstək, ehtiram və qayğıdan söz açıb.

Sonda rektor Elmar Qasımov Xoşbəxt Yusifzadəyə onun tanınmış rəssam Tahir Əfəndiyev tərəfindən kətan üzərində yağlı boya ilə çəkilmiş portretini hədiyyə edib.

# Bakı Ali Neft Məktəbi akademik Xoşbəxt Yusifzadə adına təqaüd təsis edib

**Bakı Ali Neft Məktəbi (BANM) akademik Xoşbəxt Yusifzadə adına təqaüd təsis edib.**



Azərbaycan neft sənayesinin canlı əfsanəsi, bu sahəyə böyük töhfələr vermiş SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadənin adına təsis edilmiş təqaüd ali məktəbdə keçirilən yubiley tədbirində ilk sahiblərinə təqdim olunub.

Təqaüdə BANM-in neft-qaz mühəndisliyi ixtisasının V kurs tələbələri Nihad Abbasov (ali məktəbə qəbul imtahanı göstəricisi - 700 bal) və Nadir Namazov (ali məktəbə qəbul imtahanı göstəricisi - 695 bal) layiq görülüblər.

Onların hər ikisi eyni zamanda Prezident təqaüdçüləridirlər. Təqaüd adıçəkilən tələbələrə tədris illəri ərzində əldə etdikləri yüksək nəticələrə və Ali Neft Məktəbinin sosial-ictimai fəaliyyətindəki fəallıqlarına görə təqdim olunub.

# Əbu-Dabidə ISESKO-nun İcraiyyə Şurasının 40-cı sessiyası işə başlayıb

### Sessiyada ISESKO-nun yeni adı və loqosu müəyyənləşib

Yanvarın 29-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabidə ISESKO-nun İcraiyyə Şurasının 40-cı sessiyası işə başlayıb. İki gün davam edəcək sessiya Baş Konfransın səlahiyyətləri səviyyəsindədir.

Tədbirdə BƏƏ-nin Mədəniyyət və Biliklərin İnkişafı naziri xanım Nura bint Məhəmməd əl-Kəabi, ISESKO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, milli komitələrin katibləri və digər rəsmi nümayəndələr iştirak edirlər.

AZƏRTAC xəbər verir ki, sessiyada ölkəmizi Azərbaycan Respublikasının ISESKO üzrə Milli Komissiyasının katibi, Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini və Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə təmsil edir.

Sessiyanı giriş sözü ilə açan xanım nazir Nura bint Məhəmməd əl-Kəabi İSESKO-nun fəaliyyətini yüksək qiymətləndirib. Qeyd edib ki, islam dünyasında həyatın bir çox sahəsində baş verən transformasiyalar təşkilatlardan yeni baxış, strategiya tələb edir, daha yaxşı gələcək yaratmaq naminə innovativ həll yollarını axtarıb tapmağa sövq edir. Bu baxımdan burada müzakirə olunan məsələlər böyük əhəmiyyət daşıyır.

ISESKO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik təşkilatın yeni strategiyası haqqında danışıb, onun fəaliyyətini gücləndirmək, çağırışlara daha çevik cavab verməsini təmin etmək məqsədilə bir sıra təkliflər irəli sürüb.

Çıxışlardan sonra gündəlikdə duran mövzular, o cümlədən ISESKO-nun 2020-2030-cu illər üzrə strateji planı, 2020-2021-ci illər üzrə fəaliyyət planı, təşkilatın yeni struktur layihəsi, İnkişaf Vəqfinin, Beynəlxalq Məşvərət Şurasının yaradılması layihələri ətrafında müzakirələr aparılıb. Həmçinin ISESKO-nun son illərdəki fəaliyyətinə dair hesabatı, eləcə də maliyyə hesabatı dinlənilib.

Azərbaycan nümayəndəsi Vasif Eyvazzadə müzakirələrdə fəal iştirak edib, gündəlikdə duran məsələlər barədə rəy və təkliflərini bildirib. Sessiyada təşkilatın yeni adı və loqosu səsə qoyularaq yekdilliklə qəbul edilib. ISESKO-nun yeni strategiyasına uyğun gəlməyən, onun fəaliyyət çərçivəsini daraldan əvvəlki adı dəyişdirilərək İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı olub.

Yanvarın 30-da keçiriləcək iclasda isə maliyyə nəzarəti komitəsinin üzvləri seçiləcək. Bundan başqa, İcraiyyə Şurasının növbəti - 41-ci sessiyasının vaxtı və yeri ilə bağlı müzakirələr aparılacaq.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## "TAP boru kəməri Cənub-Şərqi Avropa ölkələri üçün mühüm əhəmiyyət daşıyır"

"Azərbaycan təbii qazını Avropaya nəql edəcək TAP boru kəməri Cənub-Şərqi Avropa ölkələri üçün mühüm əhəmiyyət daşıyır". AZƏRTAC xəbər verir ki, bu barədə TAP-ın icraçı direktoru Luca Schieppati Vyanada keçirilən ənənəvi Avropa Qaz Konfransında (European Gas Conference) deyib.




"Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP təbii qaz boru kəməri layihəsinə dair fikirlərini bölüşən L.Schieppati bildirib: "TAP enerji istehlakının ağır fosil yanacaqlarından həddən çox asılı olduğu Cənub-Şərqi Avropa üçün mühüm əhəmiyyət daşıyır. Yunanıstan-Bolqarıstan İnterkonnektoru (Interconnector Greece-Bulgaria (IGB) və potensial İonik-Adriatik boru kəməri (IAP) əlaqələri ilə TAP layihəsi üzrə əlavə 10 milyard kubmetr təbii qaz nəql oluna bilər. TAP-ın tikintisi qrafik üzrə davam edir və işlərin 91 faizi yekunlaşıb. "Saipem" şirkətinin "Castoro 6" borudüzən gəmisi artıq İtaliyadadır və gəmi TAP-ın Adriatik dənizindəki 105 kilometrlik hissəsində, yəni İtaliyadan Albaniyayadək hissədə dənizin 800 metr dərinliyində boruları inşa edəcək".

Qeyd edək ki, "Cənub qaz dəhlizi" dünyada inkişaf etdirilən ən kompleks təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilir. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan "Cənub qaz dəhlizi"nin seqmentlərini "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi, TANAP və TAP layihələri təşkil edir. "Cənub qaz dəhlizi" dünya neft-qaz sənayesində bu vaxtadək olan ən mühüm və iddialı layihələrdən biridir. Bu, çox sayda müxtəlif maraqlı tərəfləri, o cümlədən 7 hökuməti və 11 şirkəti özündə əhatə edən mürəkkəb bir hədəfdir.

## "Aqrar İnkişaf Könüllüləri" yeni layihəyə start verib

"Aqrar İnkişaf Könüllüləri" təşkilatı yeni layihəyə start verib. "Gənc Əkinçilər" adlanan layihənin əsas məqsədi bitkilərə düzgün aqrotexniki qulluq, gübrələrdən istifadə qaydaları, bitki zərərvericilərinə və xəstəliklərinə qarşı mübarizə tədbirləri barədə gənclərin maarifləndirilməsinə nail olmaqdır.

Lənkəran şəhər Dövlət Aqrar İnkişaf Mərkəzində (DAİM) layihənin açılış mərasimi keçirilib. Tədbiri giriş sözü ilə açan DAİM-in direktor müavini Alim Məmmədov ölkədə aqrar sahədə aparılan islahatlar barədə məlumat verib. O, dövlət tərəfindən insan kapitalının inkişafına göstərilən dəstək fonunda gənclərin şəxsi inkişaf meyillərini, bilik və bacarıqlarını daha da artırmasının vacib olduğunu qeyd edib.

Layihənin ilk günü iştirakçılar "Toxum emalı və toxumun saxlanılması qaydaları", "Aqrar sahəyə dövlət dəstəyi və aqrar subsidiya qaydaları" mövzularında təlimlərdə iştirak ediblər. İkinci gün isə "Əkin və suvarma sistemləri", "Bitki zərərvericilərinə və xəstəliklərə qarşı mübarizə", "Bitkilərə düzgün aqrotexniki qulluğun edilməsi və gübrələrin verilməsi" mövzularında təlimlər keçirilib.

### Demoqrafiya

# Azərbaycanda miqrasiyanın saldosu yenə də müsbətdir

**İstənilən ölkədə əhalinin sayının həm təbii yolla, həm də miqrasiya hesabına çoxalması sosial-iqtisadi inkişafla bilavasitə bağlıdır. Son onilliklərin demoqrafik göstəriciləri bunun Azərbaycanda da məhz belə olduğunu təsdiqlədi. Əgər təxminən 30 il əvvəl güzəranın ağırlığından Azərbaycanı tərk edənlərin sayı aydan-aya çoxalırdısa, ölkə dinamik inkişaf yoluna qədəm qoyandan sonra vəziyyət tam dəyişdi. İndi artıq neçə illərdir miqrasiyanın saldosu müsbətdir.**



Bu, dövlətin siyasətinin mərkəzində vətəndaşın maraqlarının dayanması amilindən qaynaqlanır

Kəndlinin torpağını əkib-becərməyə imkanı olmadığı, şəhərlinin isə işlədiyi müəssisədə boşdayanmaların adi hal aldığı o dövrdə ölkədən insanların axını təbii idi. Meşələr qırılıb sobalara atılırdı. Nəinki bölgələrdə, iri şəhərlərin özündə də insanlar axşamları qaranlıq içində keçirirdi. Çünki elektrik enerjisi çatışmırdı. Bu və bir sıra digər mənfi hallar ölkədə qeyri-mütəşəkkil miqrasiya yaratmışdı.

Sosial-iqtisadi tərəqqi, o cümlədən regionların inkişafına yönəldilən ardıcıl tədbirlər insanları öz yurd-yuvalarında bərqərar etdi. Hətta ailələrini də götürüb dolanışıq dalınca özgə məmləkətə üz tutanlar geriyə döndülər. Beləliklə, kortəbii miqrasiyaya son qoyuldu.

Son illərdə Azərbaycanı daimi yaşayış yeri seçənlərin sayı ölkədən köçənlərin sayını bir neçə dəfə üstələyib. Ayrı-ayrı aylara aid rəqəmlərdə bu, özünü aydın göstərir. Məsələn, 2012-ci ildə Azərbaycana daimi yaşamağa 2200 nəfər gəlib. Ölkədən gedənlərin sayı isə cəmi 300 nəfər olub. İmmiqrantların (gələnlərin) 75,4 faizi Rusiya Federasiyasından, 10,2 faizi Qazaxıstandan, 3,1 faizi Ukraynadan köçüb. Emiqrantların (gedənlərin) isə müvafiq şəkildə 53,2 faizi, 25,3 faizi və 4,7 faizi həmin ölkələri yaşayış yeri seçənlər olub. İmmiqrantların sayının emiqrantların sayını üstələməsi Azərbaycanda artıq daimi hal alıb. 2016-cı ilin birinci rübündə gələnlər gedənlərdən 2 dəfə çox olub. 2017-ci ilin üç rübü ərzində miqrasiyanın müsbət saldosu 1020 nəfər təşkil edib. 2018-ci ilin yanvar-mart aylarında ölkəyə gələnlərin sayı gedənlərin sayını 3 dəfədən çox üstələyib (müvafiq olaraq 1010 və 301 nəfər).

Bu tendensiyanın davamlı olduğu aydın görünür. Daxili İşlər Nazirliyinin və Dövlət Miqrasiya Xidmətinin məlumatlarına istinad edərək Dövlət Statistika Komitəsi bildirir ki, Azərbaycanda miqrasiyanın saldosu müsbət olaraq qalır. Belə ki, keçən ilin 11 ayında Azərbaycana daimi yaşamaq üçün 1861 nəfər gələn olub. Ölkədən birdəfəlik köçüb gedənlərin sayı isə 1511 nəfər təşkil edib.

Azərbaycan dövlətinin sosial-iqtisadi siyasəti həm də əhalinin artımına - istər təbii, istərsə də miqrasiya yolu ilə çoxalmasına hesablanıb. Son 16 ildə 16 min kilometr yol çəkilib. Bu, ildə ən azı min kilometr yeni yol deməkdir. Təkcə keçən il çəkilən yeni yolların ümumi uzunluğu 1300 kilometr təşkil edib.

Vaxtilə işıq sarıdan korluq çəkirdik, xaricdən elektrik enerjisi alırdıq. İndi Azərbaycan elektrik enerjisinin də ixracatçısına çevrilib. 3300-dən çox məktəb, 700-dən çox tibb ocağının tikilib istifadəyə verilməsi görülmüş böyük işlərin bir hissəsidir.

2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev demişdir: "Əsas infrastruktur layihələri Azərbaycanda icra edilib. Düzdür, növbəti illərdə bu layihələrin icrasına ehtiyac var. Çünki bir daha qeyd etmək istəyirəm, əhalinin artımı bunu diktə edir. O ölkələrdəki əhali artmır, orada yeni infrastruktur layihələrinə də ehtiyac qalmır. Amma bizdə əhali artır, ona görə yeni məktəblər, uşaq bağçaları, xəstəxanalar, yol infrastrukturu, kommunikasiyalar - bütün bunlar daim diqqət tələb edir. Ona görə birinci vəzifə budur".

Müxtəlif təyinatlı istehsal müəssisələri və xidmət obyektləri, sənaye parkları və məhəllələri çoxsaylı iş yerlərinin yaradılmasına imkan verib.

Tənəzzülə uğramış, az qala unudulmuş kənd təsərrüfatı sahələrinin bərpa edilməsi, iri aqroparkların yaradılması, sahibkarlığın genişləndirilməsi bölgələrdə yaşayan əhalinin məşğulluq probleminin həllinə böyük kömək edib.

Ölkədə işsizlərin sayı minimuma enib. Təkcə keçən il 98 min yeni iş yeri açılıb. Yoxsulluğun 4,8 faiz ətrafında olması bu amillərdən qaynaqlanır.

Azərbaycana daimi yaşamağa gələnlər də məhz həmin səbəblərdən buranı seçir. Onlar dövlətin siyasətinin mərkəzində insanların maraqlarının dayandığı bir ölkənin vətəndaşı olmaqdan qürur duyurlar.

***Flora SADIQLI, "Azərbaycan"***

## Azərbaycan və Türkiyə dəmir yolları yeni razılaşma imzalayıb

"Azərbaycan Dəmir Yolları" QSC və Türkiyə Dövlət Dəmir Yolları (TCDD) arasında yük vaqonlarının mübadilə əsasında qarşılıqlı istifadəsi barədə razılığa gəlinib.

QSC-nin mətbuat katibliyinə istinadən AZƏRTAC-ın yaydığı məlumatda bildirilir ki, bununla əlaqədar hər iki ölkənin müvafiq qurumlarının nümayəndələrinin iştirakı ilə razılaşma sənədi imzalanıb. Razılaşmada beynəlxalq daşınma qaydaları və sənədləri, vaqonların yükləmə qaydaları, istifadə haqları və istifadədən yaranan kompensasiya ilə bağlı öhdəliklər qeyd olunub. Sənədə əsasən, vaqonda aparılan mallar üçün təlimat və kompensasiyalar, vaqon və konteynerlərdə daşınan yüklərin tam və ya qismən itməsi, xarab olması və zədələnməsindən irəli gələn iradlara baxılması, eləcə də zərərin ödənilməsi qaydaları tənzimlənir. Tərəflər arasında ehtiyat hissələrinin tədarükü, vaqonların zədələnməsi və müvafiq təlimatlar, zədələnmiş və itirilmiş vaqonlara görə tənzimlənən kompensasiyaya dair məsələlər barədə də razılıq əldə olunub.

## "Azərtexnolayn" Özbəkistanda polietilen boru istehsalı zavodu tikməyi planlaşdırır

Azərbaycanda fəaliyyət göstərən "Azərtexnolayn" MMC Özbəkistanda polietilen boru istehsalı zavodu tikməyi nəzərdə tutur.

AZƏRTAC xəbər verir ki, bununla bağlı razılıq "Azərtexnolayn" MMC-nin direktoru Məmmədcəfər Məmmədovla Özbəkistan xarici sərmayənin cəlb edilməsi Agentliyinin şöbə müdiri Bexzod Baxodirov arasında əldə edilib. Özbəkistan tərəfi zavodun Buxara, Səmərqənd və ya Daşkənd vilayətində tikilməsini təklif edib.

Görüşdə bir sıra texniki məsələlər, həmçinin gələcəkdə əlaqələrin daha da dərinləşdirilməsi müzakirə olunub.

M.Məmmədov bildirib ki, artıq "Azərtexnolayn" MMC-nin Özbəkistanda satış ofisi fəaliyyət göstərir. Şirkət polietilen boru istehsalı zavodu layihəsi çərçivəsində 300-400 min dollar ayırmaq niyyətindədir. Zavod hazır olduqdan sonra təxminən 40 iş yeri açılacaq.

## Ötən il 2400-ə yaxın əlil özünüməşğulluq proqramına cəlb edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) yaydığı məlumatda bildirilir ki, özünüməşğulluq proqramına cəlb olunmaq üçün müraciət edən vətəndaşlar arasında həssas qruplara, o cümlədən əlilliyi olan şəxslərə üstünlük verilir.

Bu baxımdan 2019-cu ildə ƏƏSMN-nin yanında Dövlət Məşğulluq Xidməti tərəfindən 2400-ə yaxın əlilliyi olan şəxsin kiçik ailə təsərrüflarını qurmaq üçün həmin proqrama cəlb edilməsi təsadüfi deyil.

İlk mərhələdə onlar üçün təlim kursları təşkil edilmiş və kiçik biznesin qurulmasına dair zəruri bilik və bacarıqlar öyrədilmişdir. Kursları bitirərək biznes-planlarını müdafiə etdikdən sonra isə mal və materiallar formasında aktivlərlə təmin olunmuşlar.

Əlavə olaraq daha 500 nəfər əlilliyi olan şəxsin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə BMT-nin İnkişaf Proqramının birgə icra etdiyi "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi çərçivəsində dayanıqlı biznesə sahib olmaları üçün işlər aparılmışdır.

## Vergilər Nazirliyi Apelyasiya Şurasının ötənilki göstəricilərini açıqlayıb

2019-cu ildə Vergilər Nazirliyinin Apelyasiya Şurasında ümumilikdə 108 şikayətə baxılıb. Bunlardan 10-u səyyar vergi yoxlamaları, 48-i kameral vergi yoxlamaları, 17-si operativ vergi nəzarəti tədbirləri, 29-u vergi hesabatının müəyyən olunmuş müddətdə təqdim edilməməsi, 4-ü isə digər məsələlərlə bağlı olub.

Daxil olmuş şikayətlərdən 48 vergi ödəyicisinin müraciətinə mahiyyəti üzrə baxılıb. Belə ki, həmin şikayətlərdən 29-u tam, 2-si qismən təmin edilib, 17 vergi ödəyicisinin şikayəti isə təmin olunmayıb.

Şikayətlərdən 60-na onun predmeti üzrə məhkəməyə müraciət edilməsi və ya şikayətin məhkəmədə icraatda olması, yaxud məhkəmənin qanuni qüvvəyə minmiş qərarının olması, şikayətin verilmə müddətinin buraxılması, şikayətin geri götürülməsi və şikayətə baxılması Apelyasiya Şurasının predmeti olmaması səbəbindən mahiyyəti üzrə baxılmayıb.

2019-cu ildə Şura tərəfindən baxılmış 3 şikayət üzrə qərardan vergi ödəyiciləri tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasına təkrar şikayətlər verilib. Lakin sözügedən instansiya tərəfindən çıxarılmış qərarlar ilə şuranın gəldiyi nəticə əsaslı hesab edilərək dəyişdirilmədən saxlanılıb.

## Masallıda yeni çay plantasiyaları salınıb



Kənd Təsərrüfatı Nazirliyinin həyata keçirdiyi pilot layihə çərçivəsində 540 min çay tingi alınıb və Masallı rayonunda 5 kəndin fermerlərinə məxsus 15 hektar ərazidə əkilib.

"Çayçılığın inkişafı istiqamətində ailə təsərrüfatlarının, kiçik və orta sahibkarlığın genişləndirilməsi pilot layihəsi" çərçivəsində çay bitkisinə qulluq, zərərvericilərə qarşı mübarizə və bitki mühafizəsi tədbirləri aparmaq üçün lazım olan maşın, avadanlıq və alətlər də alınaraq fermerlərin istifadəsinə verilib. Layihədən faydalanan 100-dən artıq fermerə bilik və bacarıqlarının artırılması məqsədilə təlimlər keçirilib. Bundan əlavə, yerli fermerlərin çay tinglərinə olan tələbini ödəmək məqsədilə 3 hektar ərazidə tingçilik sahəsi salınıb.

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Məşğulluğun Artırılması Layihəsi (AMAL) çərçivəsində həyata keçirdiyi bu layihə "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı"na əsaslanır. Layihəni Aqrar Kredit və İnkişaf Agentliyi icra edir.

Onu da qeyd edək ki, bu ildən etibarən qüvvəyə minən subsidiya qaydalarına əsasən, çay bitkisi ən yüksək subsidiya məbləği verilən bitkilərdəndir. Tinglər əkildiyi ildən etibarən 7 il müddətində fermer hər hektara görə 700 manat subsidiya alacaq. 7 ildən sonra subsidiya məbləği builki əmsallara görə hər hektara 240 manat təşkil edəcək.

Ümumiyyətlə, çayçılığa Masallıda son illər xüsusi diqqət yetirilir. 2013-cü ildə rayonda 5 hektar çay sahəsi olduğu halda, 2018-ci ildə 103 hektara çatıb.



# "Formula-1 Qran-pri" ölkəmizə nə verir

***2016-cı ildən etibarən Azərbaycanda keçirilən və dünyanın ən çox izlənən idman növlərdən olan "Formula-1 Qran-pri" həm ölkəmizin tanıdılmasına, həm də iqtisadiyyatın inkişafına böyük töhfə verir.***

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) analitiki Nərmin Kazımlı İİTKM-nin saytında bu barədə yazdığı məqaləsində bildirir ki, "Formula-1" Qran-prisi Azərbaycanın görməli və tarixi yerlərinin, istirahət-kurort imkanlarının, mükəmməl mətbəx və gözəl təbiətinin təbliğində, eləcə də ölkənin xidmət sektorunun inkişafında müsbət rol oynayır. Müəllif yazır ki, PwC-nin hesablamalarına görə, son 4 il ərzində Bakıda keçirilən Azərbaycan Qran-prisi ərəfəsində PR kampaniyası çərçivəsində press-relizlər, müsahibələr, şəkil, video və xüsusi tədbirlər vasitəsilə yayılan xəbərlərin bütünlüklə oxunma və baxılma sayı ümumilikdə 296,3 milyon dollar media dəyəri yaratmışdır: "Bundan başqa, turistlərin xərcləmələri, bilet satışları üzrə gəlirlər, F1 işçilərindən əldə edilən ümumi fayda, TV vasitəsilə canlı baxış üzrə əldə edilən qazanc və digər birbaşa, yaxud dolayı gəlirlər əsasında iqtisadi fayda artan templə 500,8 milyon dollar təşkil etmişdir".

Ümumilikdə 2016-2019-cu illərdə "F1 Qran-pri"i tədbirinin Azərbaycana ümumi xeyrinin 797 milyon dollar olduğunu nəzərə çatdıran müəllif qeyd edir ki, "Formula-1" bir sıra sahələrdə yeni iş yerləri yaratmaqla yanaşı, həm illik, həm də mövsümi məşğulluğu artırır. Belə ki, bu yarışlarla bağlı ölkə üzrə 5 mindən çox qısa və ortamüddətli iş yerləri yaranmış, yarışların keçirildiyi vaxt köməkçi işlərə 3000 könüllü cəlb olunmuşdur.

N.Kazımlı xüsusi vurğulayır ki, ümumiyyətlə, yarım əsrdən artıq müddətdə idman təqvimlərində xüsusi yer tutan "Formula-1" yarışına evsahibliyi etmək mühüm hadisədir: "Dünyanın 200-dən çox məntəqəsində canlı yayımlanan bu yarışlar 635 saatdan çox yayım görüntüləri təmin edir. Ev sahibi bir böyük idman tədbirinin keçirildiyi yer olaraq qlobal tamaşaçı kütləsi qarşısında müsbət rəy formalaşdıra bilir".

Eyni zamanda belə mötəbər tədbirlərin keçirilməsi ölkəmizin tanıdılması ilə yanaşı, həm də turizm sektorunun inkişafına müsbət təsir edir. Nəticədə təkcə keçənilki yarışlara gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 3,2 milyon nəfər olmuşdur. Onların yalnız bank kartları vasitəsilə apardıqları əməliyyatların ümumi dəyəri 745,7 milyon dollara çatmışdır.

Müəllif onu da qeyd edir ki, "Formula-1"lə yanaşı, müxtəlif beynəlxalq turnirlərin - bədii gimnastika, taekvondo, güləş, boks, karate və olimpiya növlərinə daxil olan digər idman yarışlarının ölkəmizdə keçirilməsi Azərbaycanı dünyada həm də idman ölkəsi kimi tanıtmışdır. Ölkəmizin beynəlxalq idman yarışlarına evsahibliyi etməsi gənclərdə bu sahəyə marağı artırmışdır.

***2016-2019-cu illərdə Azərbaycan Respublikasında keçirilən "Formula-1" Azərbaycan Qran-pri yarışının ölkə iqtisadiyyatına təsir göstəriciləri***

| İllər | İqtisadi təsir* | | Media dəyəri** | | Ümumi təsir | |
|---|---|---|---|---|---|---|
| | (manatla) | (ABŞ dolları ilə) | (manatla) | (ABŞ dolları ilə) | (manatla) | (ABŞ dolları ilə) |
| 2016 | 319 806 188 | 188 121 287 | 43 690 000 | 25 700 000 | 363 496 188 | 213 821 287 |
| 2017 | 163 053 987 | 95 914 110 | 3 910 000 | 2 300 000 | 166 963 987 | 98 214 110 |
| 2018 | 171 287 789 | 100 757 523 | 128 010 000 | 75 300 000 | 299 297 789 | 176 057 523 |
| 2019 | 197 083 808 | 115 931 652 | 328 100 000 | 193 000 000 | 525 183 808 | 308 931 652 |
| Cəm | 851 231 772 | 500 724 572 | 503 710 000 | 296 300 000 | 1 354 941 772 | 797 024 572 |

# Tarix İnstitutunun nəşrləri Milli Kitabxanaya təqdim olunub

**Yanvarın 29-da Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun 2019-cu ildə nəşr olunmuş kitablarının Azərbaycan Milli Kitabxanasına təqdimetmə mərasimi keçirilib.**




Tədbirin təşkilatçıları Mədəniyyət Nazirliyi, Tarix İnstitutu və Azərbaycan Milli Kitabxanasıdır.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan Milli Kitabxananın direktoru, professor Kərim Tahirov Prezident İlham Əliyevin Tarix İnstitutunu ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzi adlandırmaqla institut əməkdaşlarının tədqiqat işlərinə çox yüksək qiymət verdiyini qeyd edib. "Bu gün Tarix İnstitutunun nəşrləri türk, ingilis, ərəb, rus, alman, fransız, italyan və digər dillərdə oxunur. Azərbaycan tarix elmi İrəvan xanlığına, Qarabağ və Naxçıvan tarixinə həsr olunan fundamental əsərlərdə erməni saxtakarlığına sarsıdıcı zərbə vurub" deyə Kərim Tahirov vurğulayıb.

Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov çıxışında bildirib ki, 2019-cu ildə elmi müəssisədə 43 adda yeni kitab nəşr olunub. O qeyd edib ki, ötən il "Azərbaycan Xalq Cümhuriyyətinin siyasi sistemində partiyalar və parlament (1918-1920)" (rus dilində), İrəvan xanlığının tarixinə dair 4 adda broşür (ispan və ərəb dillərində), "Real tarix və "böyük Ermənistan" uydurması" (türk, ərəb və fransız dillərində), "Saxtakarların yalançı elmi, yaxud ermənisayağı "tarix"i, "Tiflis əmirliyi", "Azərbaycanın Şəki bölgəsi 1917-1920-ci illərdə", "Azərbaycanın Zəngəzur bölgəsi 1918-1920-ci illərdə", "Azərbaycanın Naxçıvan bölgəsi regional hərbi-siyasi proseslərdə (1917-1920)", "İngiloylar: zorakı xristianlaşdırmaya və gürcüləşdirməyə qarşı mübarizə tarixindən" və digər kitablar çap olunub.

Tarixçi alimlər Güntəkin Nəcəfli, Rəşad Mustafa, Kamran İsmayılov və Şahin Fazil bildiriblər ki, Prezident İlham Əliyevin təşəbbüsü, çağırışları və tapşırıqları əsasında son illərdə Tarix İnstitutunda 500-ə yaxın tədqiqat əsəri işıq üzü görüb. İnstitutun arxivi Azərbaycanın ən zəngin fondlarından biridir. Elmi müəssisəyə Paris, London, Berlin, Dehli, Moskva, Sankt-Peterburq, İstanbul, Ankara və digər yerlərdən on minlərlə arxiv sənədi gətirilib.

Sonda Tarix İnstitutu ilə Milli Kitabxana arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, müştərək elmi əsərlər çap ediləcək, birgə elmi layihələr və elmi tədbirlər həyata keçiriləcək, qarşılıqlı olaraq elektron kataloqdan istifadə ediləcək. Həmçinin Milli Kitabxana Tarix İnstitutunun nəşrlərini dünya kitabxanalarına göndərəcək.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Azərsu" ASC-nin sədri Ağcabədidə vətəndaşları qəbul edib

Mərkəzi icra hakimiyyəti orqanları, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2020-ci ilin yanvar ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri Qorxmaz Hüseynov Ağcabədi şəhərində Ağcabədi və Laçın rayonlarının sakinlərini qəbul edib.

ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Ağcabədi şəhərindəki 5 saylı Regional Su-kanal İdarəsinin inzibati binasında keçirilən qəbulda Ağcabədi və Laçın rayonlarından 53 nəfər iştirak edib. Vətəndaşların müraciətləri içməli su təchizatı və kanalizasiya xidmətləri, işə qəbul və digər məsələlərlə bağlı olub.

Hər bir vətəndaşı dinləyən "Azərsu" ASC-nin sədri müraciətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# "Əsrin anlaşması", yoxsa "Əsrin şapalağı"?

## ABŞ-ın Yaxın Şərqdə yeni tənzimləmə planı açıqlandı

**ABŞ Prezidenti Donald Trampın İsrail-Fələstin problemini həll etmək üçün vəd etdiyi "Əsrin anlaşması" planı, nəhayət, açıqlanmışdır. Vaşinqtonda Ağ evdə sənədi Tramp və İsrailin Baş Naziri Benyamin Netanyahu təqdim etmişlər. Tramp planın hər iki tərəf - həm İsrail, həm də Fələstin üçün faydalı olacağını bildirmişdir.**




Ağ evin rəsmi saytında dərc olunmuş sənəd iki hissədən ibarətdir: iqtisadi və siyasi. İqtisadi aspektlər hələ ötən ilin yayında açıqlanmışdır, siyasi hissənin detalları isə indi məlum olmuşdur.

Planın əsasını iki dövlətin bir-birini tanıması təşkil edir. Qəzzə bölməsindən və İordan çayının qərb sahilindən ibarət olan Fələstin ərazisini yolla birləşdirmək təklif olunur. ABŞ lideri vurğulamışdır ki, Vaşinqton İordan çayının qərb sahilində işğal olunmuş Fələstin torpaqlarında yəhudi məskənlərinin qanuni olduğunu tanımaq niyyətindədir. Başqa sözlə, plan İsrailin 1967-ci ildən sonra zəbt etdiyi torpaqları İsrail ərazisi hesab edir.

Planda Qüdsün statusuna xüsusi diqqət yetirilmişdir. ABŞ şəhəri İsrailin bölünməz paytaxtı sayır, eyni vaxtda Şərqi Qüdsü Fələstin dövlətinin paytaxtı kimi tanımağı təklif edir. Netanyahunun dediyinə görə, Şərqi Qüds dedikdə şəhərin ətrafındakı Əbu Dis qəsəbəsi nəzərdə tutulur. Trampın "Twitter"dəki səhifəsində yerləşdirdiyi xəritədən aydın olur ki, gələcək Fələstin dövləti İordan çayının qərb sahilində xeyli torpaq itirəcək və İsrail ərazisi ilə əhatələnəcək.

ABŞ Prezidenti sülh prosesinin başlamasının şərti kimi Fələstin rəhbərliyindən Qəzzədə fəaliyyət göstərən HƏMAS hərəkatını dəstəkləməyi dayandırmağı, həmçinin silahlı mübarizədən əl çəkməyi tələb edir. ABŞ problemin həllinə dəstək kimi 50 milyard dollarlıq investisiya təklif edir. Tramp İsrail və Fələstin tərəflərinə yekun sazişə nail olmaq üçün dörd il vaxt vermişdir.

Ağ ev administrasiyasının açıqladığı yeni tənzimləmə planı, gözlənildiyi kimi, bir-birinə zidd reaksiyalar doğurmuşdur. İsrailin Baş Naziri Trampın təşəbbüsünü dəstəkləmiş və fələstinlilərlə dərhal sülh danışıqlarına başlamağa hazır olduğunu bildirmişdir. Netanyahunun dediyinə görə, "Əsrin anlaşması" uzunmüddətli sülhə gedən real yol təklif edir. O qeyd etmişdir ki, Vaşinqtonun planı İsrailə müdafiə olunmaq üçün daimi şərq sərhədi verir. Məlumata görə, İsrailin suverenliyini İordaniya vadisinə və İordan çayının qərb sahilindəki yəhudi məskənlərinə şamil edilməsi məsələsi gələn ayın 2-də İsrail hökumətinin iclasında təsdiqlənəcək.

Fələstin lideri Mahmud Abbas ABŞ Prezidentinin planını "Əsrin şapalağı" kimi qiymətləndirərək onu rədd etmişdir. O bildirmişdir ki, "Qüds satılıq deyil, heç bir fələstinli müsəlman və ya xristianın bu planı qəbul etməsi mümkün deyil". Abbas əlavə etmişdir ki, Fələstin tərəfi yalnız beynəlxalq vasitəçilər dördlüyünün (ABŞ, Rusiya, BMT və Avropa İttifaqı) himayəsi altında İsraillə danışıqlar aparmağa hazırdır.

Türkiyə Trampın yeni planını kəskin tənqid etmişdir. Türkiyə Xarici İşlər Nazirliyi bəyanatla çıxış edərək bildirmişdir ki, ABŞ-ın "sülh planı" ölü doğulmuşdur: "Bu plan ikidövlətli həlli öldürməyi və Fələstin torpaqlarını qəsb etməyi hədəfləyən ilhaq planıdır. Fələstin xalqı və torpaqları pulla satın alına bilməz". Nazirlik vurğulamışdır ki, Qüds Türkiyə üçün "qırmızı xət"dir: "İsrailin işğal və zülmünü qanuniləşdirməyə yönəlik addımların atılmasına imkan verməyəcəyik. Qardaş Fələstin xalqının daim yanında olacağıq. Fələstin torpaqlarında müstəqil Fələstin üçün çalışmağa davam edəcəyik". Sənəddə qeyd olunur ki, Türkiyə Fələstinin qəbul etməyəcəyi heç bir planı dəstəkləməyəcək: "İşğal siyasətinə son qoymadan Yaxın Şərqə sülh gəlməz".

Trampın planına oxşar münasibəti İran da sərgiləmişdir. İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərif Ağ evin təşəbbüsünü dünya və region üçün kabus kimi qiymətləndirərək ümidvar olduğunu bildirmişdir ki, ABŞ-ın yeni planı "bütün müsəlmanların birləşməsi üçün həyəcan siqnalı olacaq".

Üç ərəb ölkəsi - Birləşmiş Ərəb Əmirlikləri, Oman və Bəhreyn "Əsrin anlaşması"nı birmənalı şəkildə dəstəkləmişdir. Bu ölkələrin Vaşinqtondakı səfirləri də yeni planın Ağ evdə keçirilmiş təqdimat mərasimində iştirak etmişlər.

Qətərin Xarici İşlər Nazirliyi İsrail-Fələstin münaqişəsinin tənzimlənməsi istiqamətində ABŞ-ın göstərdiyi səyləri təqdir etməklə yanaşı, atılan addımların beynəlxalq qanunlara uyğunluğunun vacibliyini qeyd etmişdir. Nazirlik bildirmişdir ki, fələstinlilərin Şərqi Qüds üzərində hüququ qorunub saxlanmadan, fələstinli qaçqınların torpaqlarına qayıtmaq hüququ təsbit edilmədən və 1967-ci il sərhədlərində suveren Fələstin dövləti yaradılmadan regionda sülhü təmin etmək mümkün deyil.

İsraillə diplomatik münasibətlər qurmuş Misir Trampın planına ehtiyatla yanaşmışdır. Qahirə iki maraqlı tərəfi ABŞ-ın planını diqqətlə öyrənməyə və Vaşinqtonun himayəsi altında danışıqları bərpa etmək üçün dialoq kanalları açmağa çağırmışdır. Misir Xarici İşlər Nazirliyi vurğulamışdır ki, İsraillə Fələstin arasında yekun saziş hərtərəfli və ədalətli sülhə nail olmaq üçün iki xalqın amallarına cavab verməli, müstəqil Fələstin dövlətinin yaranmasına gətirib çıxarmalıdır.

İordaniyanın xarici işlər naziri Eymən Səfədi qeyd etmişdir ki, onun ölkəsi Yaxın Şərq münaqişəsinin iki dövlət əsasında tənzimlənməsi prinsipinə sadiq qalır. O əlavə etmişdir ki, ərəblərin "Əsrin anlaşması"na münasibətdə müştərək mövqeyini işləyib hazırlamaq üçün Ərəb Dövlətləri Liqasının yaxın günlərdə keçirəcəyi iclas mühüm olacaq.

Səudiyyə Ərəbistanı Tramp administrasiyasının səylərini yüksək qiymətləndirmişdir. Krallığın Xarici İşlər Nazirliyinin bəyanatında vurğulanmışdır ki, Ər-Riyad ABŞ-ın himayəsi altında Fələstin və İsrail tərəfləri arasında birbaşa sülh danışıqlarının başlamasını dəstəkləyir. Bu arada Fələstinin WAFA informasiya agentliyi xəbər verir ki, Tramp yeni planını açıqladıqdan sonra Səudiyyə Ərəbistanı Kralı Salman bin Əbdüləziz Al Səud Fələstin lideri Mahmud Abbasla telefon əlaqəsi yaradaraq onu əmin etmişdir ki, krallığın Fələstin məsələsinə münasibətdə mövqeyi dəyişməz olaraq qalır.

"Əsrin anlaşması"na münasibət Avropada da fərqli olmuşdur. İsveçin Xarici İşlər naziri Ann Linde bildirmişdir ki, Vaşinqtonun yeni təklifi Avropa İttifaqının problemin nizamlanması naminə irəli sürdüyü tələblərə cavab vermir: "Daimi sülh tələb edir ki, danışıqlarda hər iki tərəf iştirak etsin. Həm İsrailin, həm də Fələstinin ehtiyaclarını nəzərə almaq lazımdır".

Almaniyanın Xarici İşlər naziri Hayko Maas da oxşar mövqe ifadə etmişdir. Onun fikrincə, ABŞ-ın yeni təklifi bir sıra suallar doğurur. Söhbət ilk növbədə münaqişə tərəflərinin danışıqlar prosesinə cəlb edilməsindən, həmçinin yeni təşəbbüsün hamı tərəfindən qəbul edilmiş beynəlxalq parametrlərə və hüquq normalarına uyğun olub-olmamasından gedir. Nazir qeyd etmişdir ki, Almaniya rəsmiləri ortaya çıxan sualları Avropa İttifaqındakı tərəfdaşları ilə müzakirə edəcəklər.

Böyük Britaniyanın Xarici İşlər naziri Dominik Raab isə Vaşinqtonun planını alqışlayaraq onu ciddi təklif kimi qiymətləndirmişdir. Onun dediyinə görə, yeni təşəbbüs "sərf edilmiş çoxlu vaxt və səylərin nəticəsidir".

Rusiya isə "anlaşma"ya hələlik ehtiyatla yanaşır və hansısa konkret mövqe nümayiş etdirmir. Rusiya Prezidentinin Yaxın Şərq və Afrika ölkələri üzrə şəxsi nümayəndəsi, Xarici İşlər nazirinin müavini Mixail Boqdanov TASS agentliyinə bildirmişdir ki, Moskva ABŞ-ın Yaxın Şərq münaqişəsinin tənzimlənməsi üzrə təkliflərini öyrənəcək. O əlavə etmişdir ki, hazırda ən mühümü fələstinlilərin və ərəblərin yeni plana necə yanaşmasıdır. "Valday" Beynəlxalq Diskussiya Klubunun inkişaf və dəstək fondunun elmi işlər direktoru Fyodor Lukyanovun dediyinə görə, Trampın təşəbbüsü münaiqşə tərəflərinə bir-birini istisna edən vədlər ehtiva etdiyindən onu reallaşdırmaq çətindir. Onun fikrincə, "Əsrin anlaşması" münaqişə tərəflərini danışıqlar masası arxasına oturtmağa şərait yaratmır.

*Allahverdi MEHDİYEV, "Azərbaycan"*

# Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2020-ci ilin fevral ayında şəhər və rayonlarda vətəndaşların qəbulu CƏDVƏLİ

| Mərkəzi icra hakimiyyəti orqanları, digər qurumlar | Qəbul günü | Qəbulun keçirildiyi və əhatə etdiyi şəhər, rayonlar |
|---|---|---|
| **Ceyhun Həsənov** Ədliyyə nazirinin müavini | 01 | Şirvan, Hacıqabul, Saatlı, Sabirabad, Salyan |
| **Azər Cəfərov** Ədliyyə nazirinin müavini | 03 | Mingəçevir, Şəki, Yevlax, Bərdə, Goranboy |
| **Toğrul Musayev** Ədliyyə nazirinin müavini | 04 | Qobustan, Sumqayıt, Abşeron, Xızı, Ağsu |
| **Eldar Nuriyev** Ədliyyə nazirinin müavini | 04 | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən |
| **Fikrət Məmmədov** Ədliyyə naziri | 05 | İsmayıllı, Qəbələ, Göyçay, Şamaxı, Oğuz, Ağdaş |
| **Vilayət Zahirov** Ədliyyə nazirinin müavini | 05 | Şəmkir, Gədəbəy, Tovuz, Qazax, Ağstafa |
| **Mikayıl Cabbarov** İqtisadiyyat naziri | 07 | Beyləqan |
| **Niyazi Səfərov** İqtisadiyyat nazirinin müavini | 07 | Füzuli |
| **Sahib Məmmədov** İqtisadiyyat nazirinin müavini | 07 | İmişli |
| **Ramil Yusifov** "Azərişıq" ASC-nin sədrinin müavini | 07 | Füzuli |
| **Əhməd Əhmədzadə** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri | 12 | Tovuz, Şəmkir |
| **Rafiq Aslanov** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 12 | Ağstafa |
| **Zakir Quliyev** Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 12 | Qazax |
| **Səyavuş Heydərov** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 13 | Hacıqabul |
| **Pərviz Şahbazov** Energetika naziri | 14 | Salyan |
| **Samir Vəliyev** Energetika nazirinin müavini | 14 | Gəncə |
| **Elnur Soltanov** Energetika nazirinin müavini | 14 | Hacıqabul |
| **Azad Rəhimov** Gənclər və İdman naziri | 14 | Abşeron |
| **İntiqam Babayev** Gənclər və İdman nazirinin müavini | 14 | Sumqayıt, Xızı |
| **İsmayıl İsmayılov** Gənclər və İdman nazirinin müavini | 14 | Şamaxı, Qobustan |
| **Ramin Quluzadə** Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri | 14 | Sabirabad, Saatlı |
| **Əli Abdullayev** Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini | 14 | Şirvan |
| **Şahin Yusifov** Ali Məhkəmənin Cinayət kollegiyasının sədri | 14 | Gədəbəy |
| **Namiq Əsgərov** Baş prokurorun müavini | 14 | Ucar, Ağdaş |
| **Sədaqət Qəhrəmanova** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 14 | Ağdaş, Kürdəmir, Göyçay |
| **Mübariz Qurbanlı** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 18 | Salyan |
| **Gündüz İsmayılov** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 18 | Biləsuvar |
| **Səyyad Salahlı** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini | 20 | Şirvan |
| **Arzu Rəhimov** Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi | 20 | Gəncə, Göygöl, Daşkəsən, Samux, Kəlbəcər |
| **Mayıl Şahverdiyev** Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini | 20 | Goranboy, Mingəçevir, Naftalan, Xocalı |
| **Bəhram Xəlilov** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası sədrinin müavini | 20 | Ağsu, Göyçay |
| **Ramiz Rzayev** Ali Məhkəmənin sədri | 21 | Ağsu |
| **Sahil Babayev** Əmək və Əhalinin Sosial Müdafiəsi naziri | 21 | Hacıqabul |
| **Anar Kərimov** Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini | 21 | Saatlı |
| **Vüsal Nəsirli** Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini | 21 | Şirvan |
| **Əbülfəs Qarayev** Mədəniyyət naziri | 21 | Masallı |
| **Vaqif Əliyev** Mədəniyyət nazirinin birinci müavini | 21 | Yardımlı |
| **Rafiq Bayramov** Mədəniyyət nazirinin müavini | 21 | Cəlilabad |
| **Oqtay Şirəliyev** Səhiyyə naziri | 21 | İmişli, Saatlı |
| **Elsevər Ağayev** Səhiyyə nazirinin müavini | 21 | Ağcabədi |
| **Rahim Əliyev** Səhiyyə nazirinin müavini | 21 | Beyləqan |
| **Ceyhun Bayramov** Təhsil naziri | 21 | Kürdəmir, Göyçay |
| **Rüstəm Usubov** Baş prokurorun birinci müavini | 21 | Goranboy, Xocalı |
| **Rövşən Rzayev** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 21 | Mingəçevir |
| **Sabir Əhmədov** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 21 | Yevlax |
| **Saleh Məmmədov** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri | 21 | Salyan, Neftçala |
| **Əvəz Qocayev** Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini | 21 | Biləsuvar |
| **Vüqar Əhmədov** "Azərişıq" ASC-nin sədri | 21 | Şamaxı, Qobustan |
| **Ruslan Əliyev** ARDNŞ-nin "Azəriqaz" İB-nin baş direktoru | 21 | Göyçay |
| **Ramil İsgəndərov** ARDNŞ-nin "Azəriqaz" İB-nin baş direktorunun müavini | 21 | Kürdəmir |
| **Cahid Hüseynov** ARDNŞ-nin "Azəriqaz" İB-nin baş direktorunun müavini | 21 | Ucar |
| **Seyfulla Əzimov** Daxili İşlər nazirinin birinci müavini | 22 | Bərdə, Naftalan, Goranboy, Xocalı, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd |
| **Qorxmaz Hüseynov** "Azərsu" ASC-nin sədri | 24 | Şabran, Siyəzən |
| **Teyyub Cabbarov** "Azərsu" ASC-nin sədrinin birinci müavini | 25 | Qusar, Quba |
| **Zakir Qaralov** Baş prokuror | 28 | Şirvan, Sabirabad |
| **Muxtar Babayev** Ekologiya və Təbii Sərvətlər naziri | 28 | İmişli, Beyləqan, Xocavənd |
| **Firdovsi Əliyev** Ekologiya və Təbii Sərvətlər nazirinin müavini | 28 | Füzuli |
| **Rauf Hacıyev** Ekologiya və Təbii Sərvətlər nazirinin müavini | 28 | Zərdab |
| **Kəmaləddin Heydərov** Fövqəladə Hallar naziri | 28 | İsmayıllı |
| **Rəfail Mirzəyev** Fövqəladə Hallar nazirinin birinci müavini | 28 | Qobustan |
| **Etibar Mirzəyev** Fövqəladə Hallar nazirinin müavini | 28 | Ağsu |
| **İnam Kərimov** Kənd Təsərrüfatı naziri | 28 | Ucar, Kürdəmir |
| **İlham Quliyev** Kənd Təsərrüfatı nazirinin müavini | 28 | İmişli, Zərdab |
| **Elçin Zeynalov** Kənd Təsərrüfatı nazirinin müavini | 28 | Goranboy, Yevlax |
| **Firudin Qurbanov** Təhsil nazirinin müavini | 28 | Zərdab, Ucar |
| **Səfər Mehdiyev** Dövlət Gömrük Komitəsinin sədri | 28 | Xızı, Siyəzən, Şabran |
| **İsmayıl Hüseynov** Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini | 28 | Qobustan |
| **Əsgər Abdullayev** Dövlət Gömrük Komitəsi sədrinin müavini | 28 | Quba |
| **Məleykə Abbaszadə** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 28 | Kürdəmir, Ucar |
| **Etibar Məmmədov** "Azərsu" ASC-nin sədrinin müavini | 28 | Xaçmaz |
| **Vilayət Eyvazov** Daxili İşlər naziri | 29 | Şirvan, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab, Saatlı |

**Qeyd: Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən təşkilatların səlahiyyətlərinə aid olmalıdır.**

# General Həzi Aslanovun anadan olmasının 110 illik yubileyi Hərbi Dəniz Qüvvələrində qeyd edilib





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq sərəncamına əsasən, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 110 illiyi münasibətilə silsilə tədbirlər davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görkəmli sərkərdəyə həsr olunmuş növbəti tədbir Hərbi Dəniz Qüvvələrində keçirilib.

Hərbi hissənin zabit, miçman, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları və matrosların iştirak etdikləri tədbir xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması, Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Çıxış edənlər İkinci Dünya müharibəsində qəhrəmanlıq tarixi yazan Həzi Aslanovun keçdiyi şanlı döyüş yolunun ordumuzun şəxsi heyətinə örnək olduğunu xüsusi vurğulayaraq, cəbhələrdə Azərbaycan oğul və qızlarının göstərdiyi hünər və rəşadətdən danışıblar.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin təqdim etdiyi konsert proqramı ilə başa çatıb.

# 28 tələbə "Azercell təqaüdçüsü" fəxri adına layiq görülüb

## "Azercell" 2020-ci il üzrə Tələbə Təqaüdü Proqramının nəticələrini elan edib

28 yanvar 2020-ci il tarixdə "Azercell" Tələbə Təqaüd Proqramı üzrə qalib gələn tələbələrin təntənəli mükafatlandırma mərasimini keçirib.



"Azercell Telekom" MMC-nin prezidenti Vahid Mürsəliyev, "Azercell"in İnsan Kapitalının İdarə Edilməsi departamentinin direktoru Ziba Mustafayeva və SABAH İcra Komitəsinin tələbələrlə iş üzrə meneceri Mehriban Nəzərova qalibləri təbrik edərək gələcək fəaliyyətlərində uğurlar arzu ediblər. "Yarandığı gündən etibarən "Azercell" tələbələrin fərdi və peşəkar inkişafına böyük töhfə verməklə yanaşı, bu istiqamətdə yeni imkanların yaradılması üzərində çalışır. Biz istedadlı gənclərin elmi fəaliyyətinin təşviqinə yönəlmiş bir sıra layihələrin təşəbbüskarı olmaqdan qürur duyuruq. Artıq 12 ildir ki, "Azercell" hər il ənənəvi olaraq tələbələr üçün Təcrübə və Təqaüd proqramları həyata keçirir və şirkətimiz bu günə qədər 230-dan çox tələbəyə təqaüd ayırıb" deyə Vahid Mürsəliyev tədbirdə çıxışı zamanı qeyd etdi.

Xatırladaq ki, "Azercell"in Tələbə Təqaüdü Proqramına müraciətlərin qəbulu cari ilin sentyabr ayında elan olunub. Müraciət etmiş 1750 tələbədən 741-i öncədən qoyulan tələblərə cavab verərək mərhələli seçim prosesinə dəvət alıblar. Proqramda iştirak edən bütün tələbələr üçün bərabər şəraitin yaradılması məqsədilə İnsan Kapitalının İdarə Edilməsi departamentinin mütəxəssisləri üç ay ərzində paytaxt və bölgə universitetlərinin tələbələri ilə görüşərək proqram haqqında məlumat verib, onları maraqlandıran sualları cavablandırıblar.

Qeyd edək ki, bu il 28 tələbə "Azercell" təqaüdçüsü adına layiq görülüb. Təqaüdçülərin 9-u Bakı, 10-u bölgə təhsil müəssisələrinin tələbələridir. Digər 9 tələbə isə 2017-ci ildə Təhsil Nazirliyinin SABAH qrupları və "Azercell Telekom" MMC arasında imzalanmış memorandum çərçivəsində SABAH tələbələri sırasından seçilib. Qaliblər ali təhsillərinin sonunadək "Azercell" şirkətindən 200 AZN məbləğində aylıq təqaüd almaqla yanaşı, telekommunikasiya sahəsi haqqında biliklərini artırmaq, rəqəmsal dünyanın ən son trendləri ilə yaxından tanış olmaq, şirkətin korporativ tədbirlərinə dəvət almaq, müxtəlif təlimlərdə iştirak etmək və şirkətdə təcrübə keçmək imkanını əldə ediblər.

Azercell

### "Azercell Telekom" MMC abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 30.01.2020-ci il tarixdə gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcək.

# Beynəlxalq aləm

## Çində koronavirusdan ölənlərin sayı 132 nəfərə çatdı



Çinin Hunbey əyalətində yeni koronavirusa yoluxmuş daha 26 nəfər vəfat etmişdir. Beləliklə, virusun qurbanlarının sayı 132 nəfərə çatmışdır. Bu barədə Çin Milli Səhiyyə Komissiyası məlumat vermişdir.

Bundan əlavə, ölümcül xəstəliyə daha 1459 yoluxma halı aşkar edilmişdir. Ölkədə indiyədək 5974 yoluxma halı qeydə alınmışdır. Məlumata görə, koronavirusa yoluxmada şübhəli bilinənlər nəzərə alınmaqla ümumi say 9239 nəfər təşkil edir.

Çinin hüdudlarından kənarda 15 ölkədə, o cümlədən Avstraliya, Vyetnam, Kanada, Malayziya, Sinqapur, ABŞ, Tailand, Fransa, Cənubi Koreya, Yaponiya və Almaniyada yeni koronavirusa 50-ə yaxın yoluxma halı təsdiqini tapmışdır.

## Əfqanıstanda "Taliban" hərbçilərə hücum etdi

Əfqanıstanın şimalında, Qunduz əyalətində "Taliban" hərəkatının silahlıları hərbçilərə və polislərə hücum etmişlər. Nəticədə 13 nəfər həlak olmuş, 12 nəfər yaralanmışdır. Bu barədə "Ariana" telekanalı məlumat verir.



Hadisə gecə saatlarında Dəşt-i-Arçi qəzasının mərkəzində baş vermişdir. Ekstremistlər 12 hərbçini və 1 polis əməkdaşını qətlə yetirmiş, 4 asayiş keşikçisini və 8 hərbi qulluqçunu yaralamışlar. Bundan əlavə, hazırda 3 hərbçi itkin düşmüş hesab olunur.

## Parisdə miqrantlar təxliyə edildi



Parisdə polis təxminən 1400 nəfərin məskunlaşdığı miqrant düşərgəsini təxliyə etmişdir. Bu barədə Fransa Daxili İşlər Nazirliyi məlumat vermişdir.

Miqrantlar xüsusi təşkil olunmuş qaçqın qəbulu mərkəzləri üzrə bölüşdürülmüşlər.

Təxliyə edilmiş düşərgə Fransa paytaxtının şimalında yerləşən Obervilye qəsəbəsində yol boyunca yerləşirdi.

Bundan əvvəl də Parisdə miqrant düşərgələrini köçürmək üçün oxşar əməliyyatlar keçirilmişdir.

## ABŞ-da neft ehtiyatları azalır



Ötən həftə ABŞ-da xam neft ehtiyatlarında azalma qeydə alınmışdır. Bu barədə Amerika Neft İnstitutu (API) məlumat vermişdir.

Keçən həftə ölkədəki xam neft ehtiyatları bundan əvvəlki həftə ilə müqayisədə 4,27 milyon barel azalmışdır. Bazar proqnozları da ehtiyatların azalacağına dəlalət edirdi.

Qeyd olunur ki, ölkədəki neft ehtiyatları ilə bağlı rəsmi məlumat ABŞ Enerji İnformasiya Administrasiyası (EIA) tərəfindən açıqlanacaq.

## Hindistanda dəhşətli yol-nəqliyyat qəzası

Hindistanın qərbində yerləşən Maharaştra ştatında sərnişin avtobusunun digər nəqliyyat vasitəsi ilə toqquşması nəticəsində 26 nəfər həlak olmuş, 30 nəfərdən çox adam yaralanmışdır. Bu barədə "Mumbai Mirror" qəzeti xəbər verir.



Toqquşmadan sonra hər iki nəqliyyat vasitəsi yol kənarındakı quyuya yuvarlanmışdır. Xilasetmə əməliyyatı bütün gecə davam edib və səhər saatlarında başa çatmışdır. Ölənlərin əksəriyyəti quyudan çıxarılıb. Onların arasında uşaqların da olduğu bildirilir.

*Təkrar*

## Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi xidmətlərin satın alınması məqsədilə

## *açıq tender elan edir*

- İstehlak yönümlü müxtəlif xidmətlər

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 3000 (üç min) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu İstiqlaliyyət küçəsi, 18 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Məmmədova Raya Yusif qızı, tel: 492-53-06.

**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Məktəbəqədər Təhsil Müəssisələri İdarəsi**
**İBAN H AZ27CTRE00000000000002518337**
**VÖEN: 1701374451**
**Büdcə səviyyəsinin kodu Fond 7Y**
**Büdcə Təsnifatının kodu 142340**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının ixtisas göstəriciləri;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir il ərzində gördüyü işlər barəsində məlumat.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **19 fevral 2020-ci il saat 17:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə **27 fevral 2020-ci il saat 17:00-a** qədər İstiqlaliyyət küçəsi, 18 ünvanına təqdim etməlidirlər.

İddiaçıların təklif zərfləri **28 fevral 2020-ci il saat 10:00-da** İstiqlaliyyət küçəsi, 18 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## Holcim Azərbaycan ASC-nin Təchizat və Müqavilələr şöbəsi

## *tenderə dəvət edir*

Holcim Azərbaycan ASC təchizatçı şirkətlər bazasını artırmaq məqsədilə aşağıda göstərilən xidmət üzrə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən şirkətləri əməkdaşlıq etməyə dəvət edir:

**rfq_44111 - 20014756/ CISCO/ TIS Bundle Upgrade Project**

Maraqlı tərəflər yuxarıda göstərilən xidmətin adını qeyd edib, şirkətin profayl məlumatlarını 31 yanvar 2020-ci il tarixədək offer-aze@lafargeholcim.com elektron ünvanına göndərə bilər.

Holcim Azərbaycan ASC-nin tələblərinə uyğun olan sirkətlərə əlavə məlumat veriləcək.

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 30 dekabr 2019-cu il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə emallı naqillərin satın alınması məqsədilə dərc edilmiş tenderində iddiaçıların rəsmi müraciətlərinə əsasən tenderdə iştirak etmək üçün tələb olunan sənədlərin qəbulu (tender təklifi və bank təminatı istisna olmaqla) 04 fevral 2020-ci il saat 16:00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 12 fevral 2020-ci il saat 16:00-a, təkliflərin açılışı isə 13 fevral 2020-ci il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, telefon: 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi "Təmiz Şəhər" ASC-nin İdarə Heyətinin sədri Etibar Abbasova atası

**TƏHMƏZ ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova əzizi

**NADİR KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Mətbuat Şurasının sədri Əflatun Amaşova əzizi

**QASIM QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov "Azərenerji" ASC-nin prezidenti Baba Rzayevə anası

**XANIM RZAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mahmud Məmmədov Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfova qardaşı

**FƏXRƏDDİN NƏCƏFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi Həmid Həmidova anası

**XALİSƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi "Təmiz Şəhər" ASC-nin İdarə Heyətinin sədri Etibar Abbasova atası

**TƏHMƏZ ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi "Təmiz Şəhər" ASC-nin İdarə Heyətinin sədri Etibar Abbasova atası

**TƏHMƏZ ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfova qardaşı

**FƏXRƏDDİN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6852
Sifariş 299
Qiyməti 40 qəpik